QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 006 (5478) 12 **yanvar** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: “Avropada separatizmin baş qaldırması beynəlxalq ictimaiyyətə bir siqnaldır”



Səh 2

Naxçıvanda Mərkəzi Uşaq Xəstəxanası istifadəyə verilib



3

Siyavuş Novruzov: “”Müsavat”la 1992-93-cü illərdə dövləti dağıdanlar arasında bağ qurmaq nəinki mümkün deyil, hətta absurddur”



4

Ağabəy Əsgərov: “Səs” qəzeti dinamik şəkildə inkişaf edir



5

“Səs” qəzetinin kollektivi Fəxri Xiyabanda olub



6

XİN: “Fransa erməni separatçılarının ölkəyə girişinə qadağa qoymalıdır”



10

Etirazçılar: “Ermənistan rəhbərliyinin yürütdüyü siyasətin təməlində zorakılıq dayanır”



10

10

Fazil Mustafa: “Bu ilin Cümhuriyyət İli elan edilməsi çox yüksək bir addımdır”



12

Putinin prezident seçilmək şansı - hər şey dəyişə bilər...



16

Tərlan Əhmədov: Yaxın günlərdə “Neftçi”də ilk legioner transferi olacaq



# İlham Əliyev: "Avropada separatizmin baş qaldırması beynəlxalq ictimaiyyətə bir siqnaldır"

***Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Dağlıq Qarabağ probleminin həllinin ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün olduğunu, bunun heç bir başqa yolunun olmadığını vurğulayıb.***

Bizim prinsipial mövqeyimizin ədalətli, beynəlxalq hüquqa əsaslanan və daha çox beynəlxalq dəstək qazanan mövqe olduğunu bildirən Prezident deyib: "Bunu əks etdirən bir neçə önəmli hadisə olub. Onlardan biri Dağlıq Qarabağda separatist rejim tərəfindən keçirilmiş qanunsuz "referendum"un dünya ictimaiyyəti tərəfindən tanınmamasıdır. Həm qonşu ölkələr, həm Avropa ölkələri, Avropa İttifaqı, beynəlxalq təşkilatlar "referendum"un tanınmaması haqqında birmənalı şəkildə ciddi bəyanatlar vermişlər. Bu bəyanatlar bir daha onu göstərir ki, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu dəstək getdikcə daha da artır".



Azərbaycan Prezidenti ilin sonunda Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Zirvəsində qəbul edilmiş Bəyannamədə "Şərq tərəfdaşlığı"na üzv olan ölkələrin ərazi bütövlüyünün, suverenliyinin Avropa İttifaqı tərəfindən birmənalı şəkildə dəstəkləndiyini xatırladaraq deyib: "Bu, işğalçı Ermənistana növbəti zərbə olub. Bu, ədalətin təzahürüdür və eyni zamanda, onu göstərir ki, bu gün Avropa qurumları, dünya mərkəzləri həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, eyni zamanda, ümumiyyətlə dünyada gedən proseslərlə bağlı daha müsbət yanaşma ortaya qoyurlar. O da həqiqətdir ki, hazırda Avropanın özü separatizmdən əziyyət çəkir və görür ki, separatizm nədir. Biz isə aqressiv separatizmlə üzləşmişik. Bizə qarşı soyqırımı törədilib. Bizim vətəndaşlarımız öz doğma torpaqlarından silah gücünə çıxarılmışdır. Əlbəttə, dünyada, o cümlədən Avropada separatizmin baş qaldırması beynəlxalq ictimaiyyətə bir siqnaldır ki, yalnız vahid yanaşma tətbiq olunmalıdır. Biz həmişə bunu demişik. Mən dəfələrlə bunu deyirəm ki, bütün münaqişələrə, bütün separatizm təzahürlərinə vahid yanaşma tətbiq olunmalıdır, ikili standartlara yer olmamalıdır, bundan əl çəkilməlidir. Biz bunu artıq görürük. Hesab edirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bu, önəmli hadisələrdir. Azərbaycan öz prinsipial mövqeyindən geri çəkilməyəcək və ölkəmizin ərazi bütövlüyünün bərpası bizim üçün əsas məsələdir".

## Özbəkistanın Review.uz portalı Azərbaycanın turizm potensialı haqqında məqalə yerləşdirib



АЗЕРБАЙДЖАН ДОСТИГ БОЛЬШИХ УСПЕХОВ В ОБЛАСТИ ТУРИЗМА

Автор: Review.uz | 09.01.2018 16:02

Оцените материал (2 голосов)

**В прошлом году Азербайджан посетили 2 691 998 иностранных граждан, что на 449 215, или 20% было больше, чем в 2016 г. Об этом сообщило Министерство культуры и туризма.**

Больше всех туристов было из России - 853 082. Далее следуют граждане Грузии - 537 710, Ирана - 362 597, Турции - 301 553, ОАЭ - 102 360, Ирака -62 454, Украины - 57 756, Саудовской Аравии - 33 273. Остальные - 381 213 граждане других стран.

Özbəkistanın Review.uz portalı öz səhifəsində Azərbaycanın turizm potensialı haqqında rus dilində "Azərbaycan turizm sahəsində böyük uğurlara nail olub" sərlövhəli məqalə yerləşdirib. AZƏRTAC xəbər verir ki, yazıda Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinə istinadən qeyd edilir ki, ötən il Azərbaycana 2 691 998 xarici turist gəlib ki, bu da 2016-cı ildəkindən 20 faiz çoxdur.

Ötən il Azərbaycana turist axını ən çox Rusiyadan olub, 853 082 turist qeydə alınıb ki, bu da müvafiq olaraq 2016-cı ildəkindən 20 faiz çoxdur. Bu siyahıda növbəti yerlər Gürcüstan, İran, Türkiyə, İraq, Ukrayna, Səudiyyə Ərəbistanı və digər ölkələrin payına düşür. Vurğulanır ki, il ərzində Azərbaycana ən çox turist iyul ayında gəlib - 313, 515 nəfər. Qeyd olunur ki, qış aylarında həm yerli, həm də xarici turistlər ən çox Qusardakı "Şahdağ" və Qəbələdəki "Tufandağ" turizm mərkəzlərinə üstünlük verirlər. Bildirilir ki, yanvarın ilk beş günü ərzində "Şahdağ" kompleksinə 16 min turist gəlib. Yazıda Azərbaycanın digər turizm mərkəzləri haqqında da söhbət açılır, xarici turistlər ölkəmizə dəvət olunur.

## Fevralın 15-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçiriləcək

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısının keçirilmə vaxtı fevralın 15-nə təyin edilib. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Məşvərət Şurası çərçivəsində nazirlərin növbəti toplantısının təşkili ilə əlaqədar nazirlikdə bir sıra görüşlər keçirilib və müzakirələr aparılıb. Məşvərət Şurasında iştirak etmək üçün müvafiq ölkələrə və bir sıra beynəlxalq maliyyə təşkilatlarına dəvət məktubları göndərilib. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısının proqram və gündəliyinin hazırlanması ilə bağlı tədbirlər davam etdirilir. Xatırladaq ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin Bakıdakı ilk toplantısı 2015-ci il fevralın 12-də, ikinci toplantı 2016-cı il fevralın 29-da, üçüncü toplantı isə ötən il fevralın 23-də keçirilib.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi"ndə dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Sabirabad Rayon Məhkəməsinin hakimi Təyyar Abbaslının səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanunu təsdiq edib.

***

Prezident İlham Əliyev "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 970-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

# Naxçıvanda Mərkəzi Uşaq Xəstəxanası istifadəyə verilib

***Yanvarın 11-də Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xəstəxanada yaradılan şəraitlə tanış olub. Bildirilib ki, zirzəmi qatı ilə birlikdə 4 mərtəbədən ibarət olan xəstəxanada uşaq cərrahiyyəsi, pediatriya, yenidoğulmuşlar üçün pediatriya, nevroloji, reanimasiya və intensiv terapiya, poliklinika, stomatoloji və mərkəzləşmiş laboratoriya şöbələri fəaliyyət göstərir.***



Şöbələrin hər birində müasir şərait yaradılıb, fizioterapiya, laboratoriya, əməliyyat, kardiorevmatoloq və





loqoped otaqlarında, stomatoloji kabinələrdə və palatalarda müasir tibbi avadanlıqlar quraşdırılıb. Binada müasir sterilizasiya otağı, tibb təhsili alan tələbələr üçün 4 auditoriya, eləcə də iclas zalı və yeməkxana istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında uşaqların elektron qeydiyyat sistemi yaradılıb və bu günə qədər Naxçıvan şəhərində 21 mindən artıq uşağa sağlamlıq kartı verilib.

Tibbi sığorta otağına baxış zamanı qeyd olunub ki, muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ilə bağlı səhiyyə-informasiya idarəetmə sistemi yaradılıb. Otaqda quraşdırılan kompüter bu sistemə qoşulub və qeydiyyatda olan xəstələr haqqında məlumat bazası yerləşdirilib. Bu da həkimlərin xəstələrin əvvəlki müayinə nəticələri ilə tanış olmasına imkan verəcəkdir.

Bina ilə tanışlıqdan sonra xəstəxananın kollektivi ilə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2016-cı il noyabrın 18-də "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Buna uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 21 noyabr tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq olunmuşdur. Tədbirlər Planına əsasən muxtar respublikada bir sıra tədbirlər



keçirilmiş, eyni zamanda, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası əsaslı şəkildə yenidən qurulmuşdur.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: Mərkəzi Uşaq Xəstəxanasında yaxşı kollektiv formalaşıb. Xəstəxanada fəaliyyət göstərən 306 tibb heyətinin 70-i həkimdir. Bunun da nəticəsində xəstəxanada uşaqların sağlamlığının hərtərəfli təşkilinə nail olunmuşdur. Tibbi heyətin səmərəli fəaliyyətinin nəticəsidir ki, 2017-ci ildə xəstəxanada 600-ə yaxın uşaq stasionar müalicə almış, 215 uşaqda cərrahi əməliyyat aparılmışdır. Bu dövrdə xəstəxanaya ambulator müalicə üçün 200 minə yaxın müraciət olmuş, həkimlər öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirmişlər.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiklərinə görə xəstəxananın kollektivinə təşəkkürünü bildirib və deyib ki, bu gün Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında yaradılan şərait, quraşdırılan avadanlıqlar müasir tibbin tələblərinə tam cavab verir. Eyni zamanda, xəstəxanada təkmilləşdirmə kursu keçən həkimlər fəaliyyət göstərir. Bu gün muxtar respublikada müasir həkim ambulatoriyaları, feldşer-mama məntəqələri, sahə xəstəxanaları, rayon mərkəzi xəstəxanaları və digər səhiyyə müəssisələri istifadəyə verilir, uşaqların və hamilə qadınların sağlamlığına xüsusi diqqət yetirilir. Bütün bunların nəticəsidir ki, muxtar respublikada ana və uşaq ölümlərinin sayı dünya səhiyyə sistemində qəbul olunmuş göstəricidən aşağıdır. Uşaqların sağlam böyüməsi ölkəmizin sağlam gələcəyinə xidmət edir. Ona görə də Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının kollektivi yaradılan şəraitdən səmərəli istifadə etməli, həkimlər daim öz üzərlərində işləməli, xəstəxanaya müraciət edən uşaqların müayinə və müalicəsinə, eləcə də peyvənd işinin vaxtında aparılmasına diqqət artırılmalıdır. Ali Məclisin Sədri bir daha kollektivi təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Həkim Səkinə Tarverdiyeva minnətdarlıq edərək deyib: Bu gün Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında hərtərəfli şərait yaradılıb. Müasir tibbi avadanlıqlar diaqnozların dəqiq qoyulmasına, müayinə və müalicələrin səmərəli aparılmasına imkan verəcəkdir. Xəstəxananın həkimləri xarici ölkələrdə, eləcə də Bakı şəhərində təkmilləşdirmə kurslarında olublar. Bütün bunlar muxtar respublikada səhiyyənin inkişafına və insanların sağlamlığına göstərilən qayğının nəticəsidir. Kollektiv yaradılan şəraitdən istifadə edərək daha səylə çalışacaqdır. Xəstəxana yeni istilik, elektrik və su sistemi ilə təchiz olunub, tibbi tullantıların yandırılması üçün qurğu, havalandırma sistemi, əməliyyat otaqlarında isə bakterioloji filtirli havalandırma quraşdırılıb. Binanın həyətində də abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb.

# Siyavuş Novruzov: “”Müsavat”la 1992-93-cü illərdə dövləti dağıdanlar arasında bağ qurmaq nəinki mümkün deyil, hətta absurddur”

*SİA Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Siyavuş Novruzovun müsahibəsini təqdim edir:*

***- Siyavuş müəllim, Prezident İlham Əliyev 2018-ci ili “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan etdi. Sizin də bu məsələyə münasibət bildirməyinizi istərdik.***



- Dünya təcrübəsindən məlumdur ki, özünü millət kimi təsdiqləmək əzmində olan ayrı-ayrı etnoslar müstəqil dövlət quraraq mövcudluğunu qoruyub saxlamış, beləliklə də tarix səhnəsində duruş gətirə bilmişlər. Hər bir xalqın milli özünüdərkinin ali təzahür forması olan müstəqil dövlət ideyasının gerçək həyata vəsiqə alması isə əsrlərlə davam edən tarixi mücadilənin nəticəsi olmuşdur. Dünyanın ən qədim etnoslarından biri olmaqla, bəşər sivilizasiyasına sanballı töhfələr vermiş azərbaycanlılar da taleyin qismətindən neçə əsrlərlə milli özünəməxsusluqlarını şərtləndirən keyfiyyətləri, milli dövlətçilik ənənələrini yaşatmaq, azadlıq, müstəqillik nemətinə qovuşmaq üçün çox çətin sınaqlardan, mürəkkəb yollardan keçməli olmuşlar.

Əsrlər boyu ölkə ərazisində müstəqil dövlətin qurulmasına yönəlmiş cəhdlərin - Atabəylər, Qaraqoyunlu və Ağqoyunlular, Səfəvilər və xanlıqların müasir dövlət modelində reallaşması isə məhz XX əsrin əvvəllərinə təsadüf edir. Azərbaycanın vətənpərvər, milli təfəkkürlü ziyalıları xalqımızda milli oyanış, milli dirçəliş düşüncəsinin formalaşdırılması sahəsində sistemli fəaliyyət göstərmişlər. Həmin dövrdə Azərbaycan bir çox sahələrdə, o cümlədən mədəniyyət, maarif, incəsənət və milli mətbuat sahələrində olduqca mühüm nailiyyətlər əldə etmişdir. Ən başlıcası, respublikada güclü və müasir burjua təbəqəsinin və çoxpartiyalı siyasi sistemin formalaşması ölkənin ictimai həyatında fəallığı gücləndirmiş, milli maraq və ideallar uğrunda mübarizəyə yeni nəfəs vermişdir. Beləliklə, ötən əsrin əvvəllərində çar Rusiyasında cərəyan edən ictimai-siyasi proseslər, imperiya daxilində zorən bir araya gətirilmiş xalqların azadlıq uğrunda mübarizəyə qalxması Azərbaycana da istiqlaliyyətini elan etmək imkanı yaratmışdır.

Rusiyada 1917-ci il oktyabr çevrilişi və 1918-ci ildə Zaqafqaziya Seymi dağıldıqdan sonra, mayın 27-də Seymin 44 nəfərlik müsəlman fraksiyası Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk milli hökuməti yaratmaq üçün Tiflisdə toplandı. Fraksiya Azərbaycanın idarə olunması səlahiyyətini üzərinə götürmək qərarına gələrək özünü Azərbaycanın Milli Şurası elan etdi, M.Ə.Rəsulzadə isə sözügedən Şuranın sədri seçildi. 1918-ci il mayın 28-də isə Azərbaycan Milli Şurası Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti həmin bəyannamədə xalqın istiqlal və azadlıq əzminin nəticəsi olaraq qazanılmış müstəqilliyi qoruyaraq inkişaf etdirməyi, səmərəli sosial-iqtisadi islahatların həyata keçirilməsi yolu ilə xalqın firavan həyat tərzinə nail olmağı, hər bir fərdin qanuni maraq və mənafeyinin müdafiəsində dayanmağı qarşıda mühüm vəzifələr kimi müəyyənləşdirmişdi. 1918-ci il mayın 28-də elan olunan “İstiqlal Bəyannaməsi”nin 4-cü və 5-ci bəndlərində deyilirdi: “Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, məslək və cins fərqi gözləmədən ərazisində (hüququ daxilində) yaşayan bütün vətəndaşların hüquqi siyasi və vətəni ilə təmin edir. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bütün millətlərə sərbəstanə inkişaflar üçün geniş meydan buraxır”.

Bakı şəhərini 1918-ci il iyulun sonlarında süqut etmiş Bakı kommunasından sonra ələ keçirmiş eser-menşevik və daşnak nümayəndələrindən ibarət “Sentrokaspi diktaturası”ndan təmizləmək həmin dövrdə Azərbaycan hökuməti qarşısında həyati vacib vəzifələrindən biri idi. Bir neçə ay davam edən qızğın döyüşlər nəticəsində Osmanlı və azərbaycanlı hərbi hissələrindən ibarət Qafqaz İslam Ordusu türk generalı Nuru Paşanın rəhbərliyi altında 1918-ci il sentyabrın 15-də Bakını düşmən ünsürlərdən təmizləməyə nail oldu. Sentyabrın 17-də isə F.X.Xoyskinin başçılıq etdiyi hökumət Gəncədən köçdü və Bakı şəhəri paytaxt elan olundu.

Azərbaycan hökuməti həmin dövrdə ölkənin milli maraqlarının qorunması baxımından mühüm addımlar atmışdı. Tezliklə yeni qurulmuş dövlətin bütün atributları - üçrəngli bayrağı, gerbi, himni, pul vahidi yaradıldı. Qısa müddətdə formalaşdırılan Azərbaycan ordusu 1919-cu ildə ölkənin cənubunda denikinçilərin qüvvələrini, 1920-ci ilin mart-aprel aylarında isə Qarabağdakı erməni ordusunu darmadağın edərək millətin və gənc dövlətimizin həyat qabiliyyətliliyini öz canı və qanı bahasına təsdiq etdi. Dövrün əsas çağırışının məhz elm, keyfiyyətli insan potensialı olduğunu aydın dərk edən cümhuriyyət qurucuları 1919-cu ildə ilk ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin əsasını qoydular və 100 nəfər gənci xarici dövlətlərin nüfuzlu universitetlərinə təhsil almağa göndərdilər.

Daxili siyasətdəki uğurlar xarici siyasətdə də mühüm nəticələr doğurmuşdu. Belə ki, Parlamentin sədri Ə.Topçubaşovun rəhbərliyi altında nümayəndə heyətinin Paris sülh konfransında uğurlu diplomatik fəaliyyəti sayəsində 1920-ci il yanvarın 11-də Antanta dövlətləri Azərbaycanın istiqlaliyyətini de-fakto tanımışdılar. Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi 23 aylıq müddət ərzində 20-dən çox dövlətlə, o cümlədən Türkiyə, Gürcüstan, Ermənistan, İran, Belçika, Hollandiya, Yunanıstan, Danimarka, İtaliya, Fransa, İsveçrə, İngiltərə, ABŞ, Ukrayna, Litva, Polşa, Finlandiya və başqa baş konsulluq, konsul agentlikləri səviyyəsində əlaqələr qurmağa nail olmuşdu.

Ötən əsrin əvvəllərində cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olaraq, bugünkü müstəqil dövlətimizin sələfi qismində müstəqilliyimizə hüquqi-siyasi və mənəvi əsaslar formalaşdırmışdır. Ümummilli lider Heydər Əliyevin bəyan etdiyi kimi - “1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir, xalqımızın böyük nailiyyətidir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, həm intellektual, həm də mədəni potensialını yaradıbdır”.

Azərbaycan Xalq Cümhuriyyəti müəyyən obyektiv və subyektiv səbəblər üzündən süquta uğrasa da, xalqımız milli özünüdərk və özünəməxsusluq duyğularını, milli “Mən”ini sovet imperiyası dövründə də yaşada bildi. Zəngin mədəniyyətə malik mükəmməl etnos kimi dünya tərəfindən etiraf olunan azərbaycanlıların genetik birliyi, eyni etnomədəni sistemə mənsubluğu, həmçinin milli dövlətçilik təfəkkürü bu kimi amillərə qarşı kəskin qadağalar müəyyənləşdirmiş Sovetlər Birliyi dövründə də məhdudlaşdırıla bilmədi.

***- Azərbaycan xalqının yenidən müstəqillik qazanması da xalqımızın bu möhkəm iradəsinin nəticəsi idi...***

- Ulu öndər Heydər Əliyevin ötən əsrin ortalarında Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilməsi respublikamızı həqiqi müstəqilliyə aparan nurlu yolun başlanğıcı kimi xatırlanır. Tarixin kamil şəxsiyyət, ümummilli lider kimi Azərbaycan xalqına bəxş etdiyi Heydər Əliyevin ölkəyə birinci rəhbərliyi dövründə azərbaycanlıların müstəqil düşüncə ətrafında birləşməsi, gələcəkdə müstəqil dövlət üçün hərtərəfli zəmin yaradılması imkanları genişləndi. Əsrlər boyu əxz etdiyi dövlətçilik təfəkkürünü, özünəməxsus milli-mənəvi dəyərləri, adət-ənənələri, mental xüsusiyyətləri müdrik rəhbərin sarsılmaz iradəsi, qətiyyəti sayəsində vahid sistem halına gətirərək özünütəsdiq imkanı qazanmış xalqımız hələ keçmiş ittifaq dövründə gələcək müstəqilliyinə etibarlı təməl formalaşdıra bildi. Sovet İttifaqının nüfuzlu ali məktəblərinə yüzlərlə azərbaycanlı gəncin göndərilməsi, Xalq Cümhuriyyətinin xarici ölkələrə tələbə ezamı ənənəsinin sovet rejiminin ağır şərtlərində bərpası kimi başa düşülməlidir. Habelə, Azərbaycan silahlı qüvvələrinin Mehmandarov, Şıxlinski tərəfindən əsası qoyulan şanlı ənənələrinin davamı olaraq Cəmşid Naxçıvanski adına hərbi liseyinin yaradılması da o dövrün buxovlarını sındıran cəsarətli addımlar idi.

Ümumilikdə, Heydər Əliyevin rəhbərliyi altında 1970-1980-ci illərdə istər icra strukturları, istərsə də parlament səviyyəsində həyata keçirilmiş kompleks tədbirlər respublikamızın ötən əsrin 90-cı illərə doğru müstəqillik uğrunda mübarizəsinə real hüquqi-siyasi və iqtisadi əsaslar yaratmışdır. Bu gün əminliklə demək olar ki, Azərbaycan Xalq Cümhuriyyəti yaradıcılarının ideallarında yaşatdıqları müstəqil hüquqi, demokratik, dünyəvi dövlət məhz Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda respublikaya qayıdışından sonra mümkün olmuşdur. Ulu öndər hələ Naxçıvan Ali Məclisinin sədri olarkən, 1990-cı ildə burada Xalq Cümhuriyyətinin üçrəngli bayrağını ucaldaraq 70 ildən sonra ilk dəfə Muxtar Respublikanın rəsmi atributu elan etmiş, dövlətçiliyimizin bu ən mühüm atributunu yenidən dirçəltmişdir. Təsadüfü deyil ki, məhz onun 2003-cü ildə imzaladığı sərəncam əsasında sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən Bakıda Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılmışdır. Bir daha və dönə-dönə mühüm bir tarixi fakt vurğulanmalıdır ki, əgər Ulu öndərin ikinci dəfə hakimiyyətə möhtəşəm qayıdışı olmasaydı, naşı və səriştəsiz iqtidarlar sayəsində Azərbaycan Respublikasının da taleyi Xalq Cümhuriyyətinin 1920-ci ildəki aqibətini təkrar edəcəkdi.

***- Siyavuş müəllim, hazırda bəzi müxalifət partiyaları özünü AXC-nin varisi hesab edir. Sizcə bu doğrudur?***

- Hazırda bəzi siyasi dairələrin öz yaratdıqları quruma “Müsavat” partiyası adı verməsi qətiyyən tarixi varislik ənənəsi yaratmır və kökündən yanlış mülahizələrə əsaslanır. Əvvəla qeyd etmək lazımdır ki, ötən əsrin əvvəllərində yaradılmış “Müsavat” xalqımızın çoxəsrlik azadlıq ideyasından güc alaraq milli vətənpərvər ziyalıların və bütün ictimai təbəqələrin ümumi arzu və istəklərini ifadə edən milli bir hərəkat idi. İndiki “Müsavat” isə tarixi sistemyaradıcı partiyadan tam fərqli və cılız sosial bazaya malik, korporativ maraqlara söykənən avantürist şəxslərin özfəaliyyət dərnəyi səviyyəsindən uzağa gedə bilmir və aydın məsələdir ki, tarixi müsavat mirası ilə yaxından uzaqdan heç bir əlaqəsi yoxdur. Habelə, bir çox tarixçinin və araşdırmaçının qənaətinə görə, ideoloji olaraq da tarixi müsavatçılıq daha çox sol-mərkəzçi siyasi xətt yürütsə də, indiki saxta müsavatçılar sağ-mərkəzçi və hətta radikal sağ mövqedən çıxış edirlər. Həqiqətən də 1918-ci ildə dövlət quran “Müsavat”la, 1992-93-cü illərdə hakimiyyətdə olub dövləti dağıdan, onu tam iflas həddinə çatdıranlar arasında nə hüquqi, nə siyasi, nə də mənəvi bağ qurmaq nəinki mümkün deyil, hətta büsbütün absurddur.

***- Ötən ili ölkəmiz üçün necə dəyərləndirirsiniz?***

- Ulu öndər Heydər Əliyevin xalqımızın, cəmiyyətimizin milli inkişafına yönəlmiş müstəqillik konsepsiyasını yaradıcılıqla davam və inkişaf etdirən Prezident İlham Əliyevin milli inkişaf konsepsiyasının başlıca qayəsi ölkədə demokratik transformasiya proseslərini yaxın müddətdə başa çatdırmaq, vətəndaş cəmiyyəti strukturlarının və təsisatlarının formalaşmasına başlamaq səyləri ilə həyata keçirilən “sabitlikdən inkişafa doğru” ideyasıdır. Ölkə Prezidentinin əzmkar fəaliyyətini qeyd edərkən Ulu Öndərin bu müdrik sözləri yada düşür: “Sizi əmin edirəm ki, Azərbaycan xalqı indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır”. Hər bir Azərbaycan vətəndaşının bu ideyaya inamı sonsuzdur.

***Ardı Səh. 5***

# Siyavuş Novruzov: “”Müsavat”la 1992-93-cü illərdə dövləti dağıdanlar arasında bağ qurmaq nəinki mümkün deyil, hətta absurddur”

*SİA Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Siyavuş Novruzovun müsahibəsini təqdim edir:*

Əvvəli Səh. 4

Dövlət başçısı İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə proseslərini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırır. Prezidentin bu barədə irəli sürdüyü fikirlər təkcə Azərbaycanın yox, ümumilikdə demokratiya yoluna yenicə qədəm qoymuş bütün müstəqil ölkələrin gələcək inkişafının təməl prinsipi kimi tətbiq edilə bilər. “Ölkədə həm siyasi, həm də iqtisadi sahədə islahatlar cəsarətlə aparılır. Mən tam əminəm ki, siyasi və iqtisadi islahatlar, iqtisadi yüksəliş və demokratikləşmə prosesləri bir-birini tamamlamalıdır və paralel şəkildə həyata keçirilməlidir. Əks təqdirdə, iqtisadi durum yaxşılaşmasa, bizim iqtisadi planlarımız həyata keçməsə, təbii ki, Azərbaycanda tam şəkildə demokratik cəmiyyətin qurulmasından söhbət gedə bilməz” - deyən Prezident İlham Əliyev haqlı olaraq bəyan edir ki, hər hansı ölkənin inkişafı heç də təbii sərvətlərin zənginliyi ilə deyil, demokratikləşmə proseslərindən, qanunun aliliyinin qorunmasından, vətəndaş cəmiyyəti təsisatlarının inkişafından asılıdır.

Dərin və universal böhrandan çıxaraq cəmi 20 il ərzində kosmik dövlətlər sırasına girən, dünyanın ən mötəbər beynəlxalq forumlarına ev sahibliyi edən, qlobal kataklizmlərlə çalxalanan regionda multikulturalizmin qalasına çevrilən, sosial-iqtisadi və hərbi cəhətdən gündən-günə inkişaf edən müstəqil Azərbaycan bu gün hamımızın qürur mənbəyidir. Sadəcə son aylarda baş verənlər bu günkü Azərbaycan reallığının ən bariz nümunəsidir. Belə ki, 2017-ci ilin 14 sentyabr tarixində “Əsrin müqaviləsi”nin 2050-ci iledək uzadılması ölkəmizin etibarlı və stabil inkişaf edən dövlət kimi bütün dünyada nüfuzunun yüksəlməsi, əhalimizin rifahının təminatı baxımından böyük strateji əhəmiyyət daşıyır. Habelə, cari ilin 30 oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması Azərbaycanın Avrasiyanın geosiyasi nəqliyyat mərkəzinə çevrilməsi yolunda atılmış ən mühüm addımdır. Milyondan artıq sərnişin, 17 milyon tondan artıq yük daşınması nəzərdə tutulan bu xətt həm də təcavüzkar Ermənistanın strateji blokadasını möhkəmləndirən mühüm iqtisadi-siyasi qələbədir.

Bu gün dünyada milli və dini zəmində baş verən qarşıdurmalar, axan nahaq qanlar, insanların bu münaqişələr ucbatından öz yurd-yuvasından didərgin düşməsi hamını, eləcə də bəşəriyyətin bir parçası olan xalqımızı narahat etməyə bilməz. O səbəbdən zərurət var ki, sahib olduğumuz tolerantlıq təcrübəmizi və multikulturalizm dəyərini bütün xalqlara aşılayaq və bu yolla dünyada sülhün və əmin-amanlığın bərqərar olmasına öz töhfəmizi verək.

Məhz bu missiyanı həyata keçirmək məqsədi ilə ölkə başçısı İlham Əliyev 2016-cı ili “Multikulturalizm”, 2017-ci ili isə “İslam Həmrəyliyi İli” elan etmiş, bu istiqamətdə ölkə daxilində və xaricdə məqsədyönlü işlərin aparılması üçün müvafiq göstərişlərini vermişdir.

Eyni zamanda, bu sahədə respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fədakar fəaliyyəti xüsusilə qeyd edilməlidir. Məhz onun rəhbərliyi ilə ardıcıl şəkildə sivilizasiyalararası dialoqun qurulması sahəsində dünyanın tanınmış elm və mədəniyyət xadimlərinin də iştirak etdiyi bir sıra mötəbər tədbirlərin, konfransların və beynəlxalq forumların Azərbaycanda keçirilməsinə nail olunmuşdur. Mehriban xanımın beynəlxalq miqyasda uğurlu fəaliyyəti nəticəsində Azərbaycan həqiqətləri dünyaya çatdırılmış, ölkəmiz ən nüfuzlu mədəni və idman yarışlarına ev sahibliyi etmişdir. Onun rəhbərliyi altında Azərbaycanın zəngin mədəni irsi, milli-mənəvi dəyərləri bütün dünyada uğurla təbliğ olunmuşdur. Uzun müddət rəhbərlik etdiyi Heydər Əliyev Fondu nəinki Azərbaycanda yüzlərlə təhsil ocağı və məscidlər inşa və təmir etmiş, habelə, ölkənin sərhədlərindən uzaqda Pakistanda, Rumıniyada məktəblər tikilmiş, Avropada və Rusiyada dünya mədəni irsinə aid olan tarixi-dini abidələr inşa və təmir olunmuşdur. Həmçinin, məhz Mehriban xanımın təşəbbüsü ilə yüksək humanizm prinsipləri rəhbər tutularaq ölkəmizdə geniş əhatəli amnistiya aktları həyata keçirilmiş, yüzlərlə ailəyə sevinc bəxş edilmişdir.

***- Siyavuş müəllim, bu gün Azərbaycanın ən ağrılı problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir...***

- Bu gün Azərbaycan dövlətçiliyinin ən mühüm problemi ölkənin ərazi bütövlüyünün təmin olunmasıdır. Ermənistan Respublikasının təcavüzü nəticəsində işğal altına düşmüş ərazilərimizin azad edilməsi, viran qoyulmuş kənd, rayon və şəhərlərimizin bərpa olunması, sayı bir milyona çatan və uzun müddətdən bəri məşəqqətli köçkün həyatı sürən soydaşlarımızın doğma yurdyuvalarına qayıtması Azərbaycan dövlətinin qarşısında çox məsul bir vəzifə, ən vacib məqsəd kimi durur. Müstəqil dövlətçiliyimizin banisi, müasir Azərbaycanın memarı, böyük öndərimiz Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezident İlham Əliyev xalqımıza hədsiz məhrumiyyətlər, müstəqil dövlətimizə böyük itkilər gətirmiş təcavüzə son qoyulması üçün çoxşaxəli və səmərəli hüquqi-diplomatik addımlar atır. Bütün bunların nəticəsidir ki, indi dünya birliyi Azərbaycanın haqlı olduğunu, Ermənistanın işğalçı və təcavüzkar siyasət yeritdiyini getdikcə daha yaxşı anlayır. Təsadüfi deyil ki, bir çox mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktı birmənalı şəkildə dəfələrlə təsdiqlənmiş, onun təcavüzkarlıqdan əl çəkməsi tələb olunmuşdur.

Zaman isə heç şübhəsiz Azərbaycanın xeyrinə işləyir. Prezdent İlham Əliyevin uğurlu rəhbərliyi sayəsində təkcə 2017-ci ildə dövlət büdcəsinin gəlirləri 3 milyard manat artmış, valyuta ehtiyatları 4,5 milyard artaraq 42 milyard dollara çatmışdır. Ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulmuş, ixracat 19 faiz artmış, ticarət balansında 6,2 milyard dollarlıq müsbət saldo meydana gəlmişdir. Geniş iqtisadi imkanlar isə heç şübhəsiz Azərbaycan Silahlı Qüvvələrinin ən müasir silah və texnika ilə təchizatını sürətləndirməklə yanaşı, təcavüzkar Ermənistanla ölkəmiz arasında nəinki dərin fərq, hətta ciddi hərbi-iqtisadi uçurum yaradır. Bu amillər isə Azərbaycanın labüd qələbəsini gündən-günə yaxınlaşdırır.

Bütün sahələrdə Ulu Öndərin siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev bu siyasi xətti daha da inkişaf etdirərək Cümhuriyyətin 100 illiyi münasibətilə 2017-ci ildə xüsusi sərəncam imzaladı. Sərəncamda Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti olduqca yüksək qiymətləndirilərək deyilirdi: “Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq birliyin subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı”.

Nəhayət, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 10 yanvar 2018-ci il tarixli iclasında dövlət başçısının bu ili “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan etməsi bu dövlətin tariximizdə oynadığı müstəsna rolu vurğulamaqla yanaşı, onun əsasını qoyduğu ideyaların əbədiliyinin və həmişəyaşarlılığının növbəti təsdiqidir. Prezident İlham Əliyev həmin iclasdakı çıxışında demişdir: “Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq”.

Prezidentin qarşıya qoyduğu vəzifələr və 2018-ci ildə görülməsi nəzərdə tutulan işlər isə bir növ “Cümhuriyyət İlinə” ərmağan olacaqdır. Belə ki, ümumilikdə ölkə iqtisadiyyatına 15 milyard dollar sərmayə qoyuluşu gözlənilir. Habelə, irimiqyaslı layihələrdən TANAP layihəsinin, Ələt Dəniz Ticarət Limanının birinci mərhələsi başa çatdırılacaq, ikinci süni peykimiz olan “Azerspace-2” kosmosa çıxarılacaq. Sahibkarlığa Kömək Milli Fondu sırf daxili imkanlar hesabına yerli iş adamlarına 170 milyon manatdan artıq güzəştli kredit verəcək. 20 min köçkün ailəsi yeni inşa ediləcək evlərə və mənzillərə köçürüləcək. Ölkədə 137 modul tipli məktəb, 6 yeni mərkəzi rayon xəstəxanası, 3 “ASAN xidmət” mərkəzi, 2 Olimpiya idman kompleksi, bölgələrimizdə yeni sənaye parkları, 10 yeni xalça fabriki tikilərək istifadəyə veriləcək. 160 milyon dollarlıq kənd təsərrüfatı texnikası alınacaq, 300-dən artıq subartezian quyusu qazılacaq və ən az 100 min hektar heç vaxt suvarılmamış ərazi əkinçiliyə açılacaq. Sevindirici haldır ki, bütün bunlar Cümhuriyyətin yubileyinə veriləcək töhfələrin heç də tam siyahısı deyil.

Beləliklə, sadalanan məqamlar bir daha onu sübut edir ki, bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən müstəqil Azərbaycanın iqtisadi cəhətdən inkişaf etmiş, hüquqi, dünyəvi və demokratik dövlət imicinin formalaşmasında, onun möhkəm təməllərinin qoyulmasında görkəmli dövlət xadimi Prezident İlham Əliyevin xidmətləri əvəzsizdir və daim tariximizə qızıl hərflərlə yazılacaqdır. Biz isə arzu edək ki “Cümhuriyyət İli” bütün həmvətənlərimiz üçün birlik, bərabərlik və həmrəylik ili kimi tariximizə əbədi həkk olunsun.

## Ağabəy Əsgərov: “Səs” qəzeti dinamik şəkildə inkişaf edir

“Səs” qəzetinin 27 illik şanlı tarixində mənə də bir xoşbəxtlik nəsib olub. Çünki “Səs” qəzetinin 13 il ərzində baş redaktoru olmuşam. Qəzet əvvəl yaranan dövrdə həftədə bir dəfə dərc olunurdu-



sa, hazırda gündəlik, çoxtirajlı bir qəzet kimi fəaliyyət göstərir”. Bunu SİA-ya açıqlamasında “Azərbaycan” nəşriyyatının baş direktoru Ağabəy Əsgərov deyib. Baş redaktorun sözlərinə görə, “Səs” qəzeti ilk dövrlərində bir neçə dəfə o zamankı hakimiyyət tərəfindən bağlanıb: “O zaman vəziyyət çox ağır idi, biz hər gün ciddi təzyiqlər altında işləyirdik. İlk dəfə Ayaz Mütəllibovun vaxtında, daha sonra Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətdə olduğu dövrdə qəzetə qarşı bir çox təzyiqlər və təqiblər olmuşdu. Amma buna baxmayaraq həmişə “Səs” qəzetinin birmənalı mövqeyi olub və bir xətt üzrə gedib. Qəzet həmişə Azərbaycan dövlətinin, dövlətçiliyinin mənafeyində dayanan bir mətbu orqan olub. Bu gün “Səs” qəzeti dinamik şəkildə inkişaf edir. Qəzetin çox yaxşı, mütəşəkkil, yüksək səviyyəli bir kollektivi vardır. “Səs” qəzeti bundan sonra daha çox inkişaf edəcək”.

## XİN: “ABŞ Dövlət Departamentinin Azərbaycanla bağlı son açıqlaması çox təəccüblüdür”

Azərbaycan terrorizmin bütün forma və təzahürlərini kəskin şəkildə qınayır və pisləyir. Son illərdə Azərbaycana turist axınının 24 faiz artdığı, ölkəmizə gələn əcnəbi vətəndaşların sayının 2,7 milyon nəfəri ötdüyü, Azərbaycanın I Avropa Oyunları, IV İslam Həm-




rəyliyi Oyunları, Formula-1 yarışları, mədəniyyətlər və dinlərarası dialoq forumları, digər yüksək səviyyəli siyasi, iqtisadi, idman və mədəniyyət xarakterli mötəbər tədbirlərə, o cümlədən ABŞ və Rusiya Baş qərargah rəislərinin, NATO hərbi komitəsinin rəhbərinin və Rusiya Baş qərargah rəisinin görüşləri kimi tədbirlərə ev sahibi etdiyi halda, ABŞ Dövlət Departamentinin belə bir açıqlaması çox təəccüblüdür.

Bu fikri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev ABŞ Dövlət Departamentinin Azərbaycanı terror riski olan ölkələr kateqoriyasına daxil etməsi ilə əlaqədar AZƏRTAC-a açıqlamasında bildirib. Hikmət Hacıyev deyib: “Azərbaycanın sözügedən mötəbər tədbirlərə ev sahibliyi etməsi digər amillərlə bərabər, ölkəmizdə mövcud olan sabitlik, təhlükəsizlik və ictimai asayişin yüksək səviyyədə təmin olunması ilə bağlıdır. Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş əraziləri istisna olmaqla, Azərbaycan hökuməti ölkədəki təhlükəsizlik və operativ vəziyyəti tam nəzarətdə saxlayır. Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsi regional sülh və təhlükəsizlik üçün başlıca təhdid olaraq qalır”.

# “Səs” qəzetinin kollektivi Fəxri Xiyabanda olub



Dünən “Səs” qəzetinin yaranmasının 27 illiyi münasibətilə qəzetin rəhbərliyi başda olmaqla, media kapitanları, kollektivin üzvləri Fəxri Xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüblər. SİA-nın verdiyi məlumata görə, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.



Fəxri Xiyabanı ziyarət edənlər arasında “Azərbaycan” nəşriyyatının baş direktoru Ağabəy Əsgərov, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə də olub.

# Daimi oxucu Qönçə Qasımova “Səs”in diplomu ilə təltif edilib

*“Səs” qəzetinin 91 yaşlı daimi oxucusu: “Mənə həyatımda “Səs” qəzeti qədər doğma olan ikinci qəzet olmayıb”*



Bu gün nəşrə başlamasının 27-ci ildönümünü qeyd edən “Səs” qəzeti yarandığı gündən Azərbaycan ictimai fikrinə öz səsini çatdırmağı bacarıb. Həm də, “Səs” qəzetini Yeni Azərbaycan Partiyasının fəaliyyətindən ayrı təsəvvür etmək mümkün deyil. Çünki ötən əsrin 90-cı illərində hökm sürən o ağır və çətin dövrlərdə “Səs” qəzeti Ulu Öndər Heydər Əliyevin müəllifliyi ilə yaranan Yeni Azərbaycan Partiyasının təşkilatlanmasında və formalaşmasında böyük dəstək göstərmişdir. Məhz bu mübarizliyinə, haqq-ədalət carçısı rolunda çıxış etməsinə görə, qəzet geniş oxucu auditoriyasında özünə böyük, hörmət və nüfuz qazandırmışdır. Sədaqətli, bu gün də, hər bir nüsxəsini sevə-sevə oxuyan oxucular az deyil. Onlardan biri də, 91 yaşlı Qasımova Qönçə Ağa qızıdır. Qönçə Qasımova “Səs” qəzetinin nəşrə başladığı 1991-ci il yanvarın 11-dən bu günə qədər çapdan çıxan hər bir sayını oxuyub. Bu oxucusunun fəaliyyətini və qəzetə olan dəyərini yüksək qiymətləndirən qəzetin kollektivinin ümumi qərarına əsasən, Qönçə Qasımova “Səs”in diplomu ilə mükafatlandırılıb. Evində, Q.Qasımovanı ziyarət edən, qəzetin baş redaktoru Bəhruz Quliyev və kollektivin əməkdaşları gül buketini, eləcə də diplomu sədaqətli oxucuya təqdim ediblər. Göstərilən diqqətə görə, qəzetin kollektivinə və baş redaktor Bəhruz Quliyevə öz təşəkkürünü bildirən bu mehriban və qayğıkeş xanım deyir ki, onun həyatında “Səs” qəzeti qədər doğma olan ikinci qəzet olmayıb: “Evimdə, qəzetin arxivi var. Burada qəzetin ilk sayından bugünkü sayına qədər bütün nüsxələri saxlanılır. O dövrdən, bugünkü günə qədər qəzet, bir növ Azərbaycan mətbuatı üçün məktəb rolunu oynayır. Qəzetin yaradıcı heyətinə nəcib və xeyirxah fəaliyyətlərində uğurlar arzulayıram”.

**İ.ƏLİYEV**

# “Qaçqın və məcburi köçkünlərin sosial vəziyyəti həmişə Prezidentin diqqətində olub”



“Azərbaycan Prezidenti İlham Əliyevin qaçqın və məcburi köçkünlərə olan diqqəti onlar üçün görülən işlər və yaradılan şəraitə sübut olunur. Ötən gün Azərbaycan Prezidentinin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2017-ci ilin yekunlarına həsr olunan iclasında da dövlət başçısı bildirdi ki, hər il olduğu kimi ötən ildə də məcburi köçkünlərin problemləri daim diqqət mərkəzində olub”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. Deputatın sözlərinə görə, qaçqın və məcburi köçkünlərin problemləri Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk gündən qarşıda duran əsas məsələlərdən olub və bu proses Prezident İlham Əliyevin hakimiyyətə gəldiyi ilk gündən davam etdirilir: “Bunun nəticəsi idi ki, Prezident İlham Əliyev ilk hakmiyyətə gəldiyi günlərdən çadır şəhərciklərinin ləğvi, onlar üçün yeni mənzillərin tikilməsi və işlə təminatı məsələlərinə xüsusi diqqət yetirməyə başladı. Bu gün də sözügedən məsələlər yerinə yetirilməkdədir”.

2017-ci ildə məcburi köçkünlər üçün iki böyük qəsəbənin salındığını qeyd edən E.Məmmədov söyləyib ki, görülən işlər nəticəsində Cocuq Mərcanlı və Ağdərədən olan qaçqın və məcburi köçkünlərimiz öz torpaqlarına qayıtmış oldular: “Ötən il eyni zamanda Bakı və Sumqayıt ətrafı ərazirdə məcburi köçkünlər üçün minlərlə yeni evlər tikildi. Ən ağır vəziyyətdə yaşayan qaçqın və məcburi köçkünlər yeni evlə təmin olundular”. Deputat söyləyib ki, ümumiyyətlə, 2017-ci il qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülüb: “Azərbaycan Prezidentinin ötən gün keçirilən iclasda söylədiyi kimi məcburi köçkün problemi hər zaman dövlətimizin diqqətindədir və torpaqlarımız işğaldan azad olunana və onlar öz yurd-yuvalarına qayıdana qədər bu, belə də davam edəcək. Cənab Prezident bir daha bildirdi ki, bu kateqroiyadan olan insanların sosial vəziyyətinin, maddi durumunun yaxşılaşdırılması üçün dövlət bütün tədbirləri görür və görəcək”.

“Ölkə başçısının söylədiyi fikirlərin nəticəsidir ki, 2018-ci ilin dövlət büdcəsindən qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün 50 milyon manatdan artıq vəsait nəzərdə tutulub. Əgər lazım olsa, bu məbləğin artırılması üçün də lazımi tədbirlər görüləcək. Bütün bunları nəzərə alaraq, demək istəyirəm ki, Azərbaycan Prezidentinin rəhbərliyi altında dövlətimiz hər zaman bu kateqoriyadan insaları diqqətində saxlayır və onların iş və digər təminatlarının yaxşılaşdırıması üçün lazımı addımlar atılır”,- deyə, E.Məmmədov əlavə edib.

# Əflatun Amaşov: “Səs” öz ənənələrinə sadiqdir”



““Səs” qəzeti müasir Azərbaycan tarixində son dərəcə mühüm missiya yerinə yetirmiş mətbuat orqanıdır. Bu missiya ölkəmizin müstəqilliyinin əldə edilməsi, dövlətçiliyimizin möhkəmlənməsi baxımından təkrarsız və bənzərsizdir, əsl fədakarlıq nümunəsidir. Məhz buna görə də, nəşr geniş oxucu auditoriyası tərəfindən sevilibdir”. Bunu Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov “Səs” qəzetinin 27-ci ildönümü ilə bağlı qəzetin baş redaktoru Bəhruz Quliyevə göndərdiyi təbrik məktubunda qeyd edib. Ə.Amaşov bildirib ki, ötən 27 ilin təhlili göstərir ki, “Səs” öz ənənələrinə sadiqdir: “Nəşrin əldə etdiyi ən böyük uğur isə dövlətçiliyimizə, Ulu Öndər Heydər Əliyev ideyalarına sadiqliyi peşəkar jurnalistika prinsipləri ilə çulğalaşdırmaqdan, ali dəyər və prinsiplərini parlaq yaradıcılıq dəst-xətinə çevirərək, inkişaf etdirməkdən ibarətdir. Bu səbəbdəndir ki, nəşr nəinki öz oxucularının sevimlisidir, bütövlükdə, Azərbaycan cəmiyyətində qəbul edilən mətbuat orqanıdır. “Səs” qəzetinin rəhbərliyini və əməksevər kollektivini nəşrin fəaliyyətə başlamasının 27 illiyi münasibəti ilə ürəkdən təbrik edirəm. İnanıram ki, bu qəzetdə çalışan həmkarlarım gələcək yaradıcılıq uğurları ilə “Səs”in daha yüksək zirvələr fəth etməsinə özlərinin layiqli töhfələrini verəcəklər. Bu işdə onların hər birinə möhkəm can sağlığı arzulayıram”.

# Heydər Əliyev Beynəlxalq Aeroportundan yeni rekord - ildə 4 milyon sərnişin




Ötən il Heydər Əliyev Beynəlxalq Aeroportu 4 milyondan çox sərnişinə xidmət göstərib. Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hava limanı növbəti rekorda imza atıb. 2017-ci ildə 4,06 milyon sərnişinə xidmət göstərilib. Bu ötənilki göstərici ilə müqayisədə 23 faiz çoxdur. 2017-ci ildə ümumilikdə 55 aviaşirkət müntəzəm və çarter reysləri yerinə yetirib. Heydər Əliyev Beynəlxalq Aeroportu 8 yeni aviadaşıyıcını - “Air Arabia”, “Wataniya Airways”, “ISR Air”, “Jazeera Airways”, “IrAero”, “Mahan Air”, “İkar” aviaşirkətini (“Pegasfly” brendi) və Azərbaycanın ilk loukosteri “Buta Airways”i qarşılayıb. Hesabat dövründə “Azərbaycan Hava Yolları” (AZAL) milli aviadaşıyıcısının payına 2,2 milyon sərnişin, “Buta Airways” loukosterinin payına isə 92 min sərnişin düşüb. Eyni zamanda, 114 min tranzit, 50 min sərnişin isə çarter reysləri üzrə qeydə alınıb. Sərnişinlərin 85 faizi beynəlxalq reyslərin payına düşüb. Heydər Əliyev Beynəlxalq Aeroportunun beynəlxalq daşımalarının 46 faizi AZAL-ın və “Buta Airways”in, 54 faizi isə xarici aviadaşıyıcıların payına düşüb.

Ən məşhur beynəlxalq istiqamətlərin onluğuna - Moskva, İstanbul, Dubay, Kiyev, Tehran, Antalya, Tbilisi, Bağdad, Doha və Sankt-Peterburq daxil olub. 2,52 milyon sərnişin bu istiqamətlərə uçub. Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksi (Terminal 1) 2014-cü ilin aprel ayında istifadəyə verilib. Onun ümumi sahəsi 65 min kvadratmetr təşkil edir. Dünyada müxtəlif aviaşirkətlər və hava limanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin öyrənilməsi üzrə ixtisaslaşan Böyük Britaniyanın nüfuzlu konsaltinq “Skytrax” şirkəti tərəfindən Heydər Əliyev Beynəlxalq Aeroportu 4 ulduza layiq görülüb. 2017-ci ilin mart ayında Heydər Əliyev Beynəlxalq Aeroportu Rusiya və MDB ölkələrinin bütün hava limanları arasında göstərilən xidmət səviyyəsinə görə ən yaxşılar siyahısına başçılıq edərək Skytrax World Airport Awards mükafatına layiq görülüb.

# "İki sahil" qəzetinin müəllif hüquqları daha etibarlı qorunacaq

***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) "İki sahil" qəzetinin rəhbərliyi ilə görüş keçirilib. Görüşün məqsədi MEK-in mətbuat fondunun zənginləşdirilməsini ənənəyə çevirmək, bu prosesin aparıcı media tərəfindən ictimailəşdirilməsini təmin etmək, əməkdaşlıq məsələlərini müzakirə etmək idi.***



Tədbirdə MEK-in direktoru Leyla İmanova kitabxananın fəaliyyəti, strateji hədəfləri, 2017-ci ilin nəticələri barədə geniş məlumat verdi. Qeyd etdi ki, bu müddət ərzində kitabxana bir sıra önəmli layihələr reallaşdırıb, çoxsaylı təşəbbüslər həyata keçirib. Kitabxanada fondların zənginləşdirmək işinə daim diqqət verildiyini və bu məqsədlə atılan addımları diqqətə çatdıran L.İmanova rəhbərlik etdiyi qurumun 2017-ci ildə əldə etdiyi mühüm nəticələr, onların 5 illik strateji hədəflər üzərində qurulması, MEK-in imza atdığı və Azərbaycan kitabxana-informasiya məkanında uğuruna nail olduğu ilk təşəbbüslər barədə ətraflı söhbət açdı. Direktor, eyni zamanda kataloq mübadiləsindən, xarici ölkə səfirlikləri ilə yaradılan əməkdaşlıq əlaqələri nəticəsində MEK-də 20-dən çox xarici ölkənin təmsil olunduğu Diplomatik fondun yaradılmasından, 40-a yaxın ölkə, 50-dən çox təşkilat ilə beynəlxalq kitab mübadiləsindən də bəhs etdi.

MEK-in digər çoxşaxəli fəaliyyətindən də söz açan direktor bildirdi ki, bütün bunlar kitabxananın media ilə aktiv əməkdaşlığı sayəsində mətbuatda və MEK-ə məxsus internet resurslarında, www.mek.az saytında işıqlandırılaraq ictimaiyyətin diqqətinə çatdırılır. Elm sahəsində baş verən yeniliklərin, inkişaf proseslərinin media vasitəsilə ictimaiyyətə çatdırılması, təbliğ edilməsi, informasiyanın toplanılması, sistemləşdirilməsi və etibarlı şəkildə qorunub saxlanılması barədə 2017-ci ildə AMEA rəhbərliyi və Mətbuat Şurası arasında əldə olunan razılaşmanın əhəmiyyətini qeyd edən L.İmanova Azərbaycanın aparıcı mətbu orqanlarının nüsxələrinin elektron formatda MEK-in Milli Rəqəmsal Yaddaş bazasına daxil edilməsi prosesinin başlanıldığını vurğuladı. MEK-in direktoru ölkənin mətbuat aləmində xüsusi çəkisi ilə seçilən "İki sahil" qəzetinin də prosesə qoşulmaq istəyini yüksək qiymətləndirdi.

"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə rəhbərlik etdiyi mətbu orqanın zəngin və şərəfli tarixindən, keçdiyi inkişaf mərhələlərindən söz açdı: "Müstəqil Azərbaycanla həmyaşıd, müasir ölkə mətbuatının yaranması və formalaşmasında öz yeri və rolu olan "İki sahil" qəzetinin ilk nömrəsi 1991-ci il 10 iyul tarixində çapdan çıxıb. Qəzetin ideyası, "İki sahil" adı ilə nəşrini davam etdirməsi özü üçün bir amal seçdiyi "Vahid Azərbaycan uğrunda!" devizindən aydın hiss olunur. "İki sahil" nəşrə başladığı ilk dövrlərdə ölkədə xaos, anarxiya, özbaşınalıqlar hökm sürürdü. İctimai-siyasi durumun gərginliyi bütün sahələr kimi, mətbuata da öz mənfi təsirini göstərirdi. İqtisadi inkişafdan danışmaq mümkün deyildi. Bütün bu çətinliklərə baxmayaraq "İki sahil" mətbuatın əsas funksiyası olan cəmiyyətin güzgüsü rolunu yüksək səviyyədə yerinə yetirdi və bu gün də bu missiyasını uğurla davam etdirir. "İki sahil" qəzeti yarandığı gündən söz və mətbuat azadlığının verdiyi imkanlardan doğru, düzgün və dəqiq şəkildə istifadə edib, jurnalistikanın müqəddəs ənənələrinə sadiq qalıb, dövlətçiliyin və milli maraqların qorunmasına xidmət edib. Xüsusi olaraq vurğulamaq istəyirəm ki, "İki sahil" tarixi bir missiyanı yerinə yetirib. Müstəqilliyin ilk illərində Azərbaycanın böyük problemlərlə üzləşməsi, xalqın ulu öndər Heydər Əliyevə çağırışı, ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı məşhur "91-lər"in Ümummilli Liderə müraciəti dərc edilib. Heydər Əliyev ideyalarının təbliğində qabaqcıl sıralarda dayanan "İki sahil" üzərinə düşən məsuliyyəti layiqincə yerinə yetirdiyi kimi, dövlətçilik, azərbaycançılıq ideyalarına sadiqliyini bu gün də qoruyub saxlayır. Ulu öndər Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilən ümumrespublika müşavirəsində "İki sahil" qəzetinin rolunu yüksək dəyərləndirdi."

Baş redaktor məlumat verdi ki, bu gün "İki sahil" qəzetinin həm yazılı, həm elektron və həm də yenicə fəaliyyətə başlamış internet televiziyası fəaliyyət göstərir: "Bu gün Heydər Əliyev ideyaları yaşayır, ölkəmiz möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir. Təbii ki, qəzetimiz yarandığı ilk illərdə olduğu kimi, bu gün də Heydər Əliyev ideyalarının fəal təbliğatçısıdır, dövlət başçımız cənab İlham Əliyevin yürütdüyü uğurlu siyasi kursun ən böyük dəstəkçilərindən və təbliğatçılarından biridir. Son 14 ildən artıq müddətdə dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan tarixinə iqtisadi islahatlar ili kimi daxil olub. İqtisadi və siyasi islahatların vəhdətliyi fonunda Azərbaycana beynəlxalq münasibət daha da yüksəlir. Azərbaycan demokratik ölkə kimi nüfuz qazanıb. İnsan hüquqlarının müdafiəsi, azad mətbuatın inkişafı, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində göstərilən səylərin miqyası genişdir. Əsas olan mövcud reallıqlarımızı qəzetimiz ölkə və dünya ictimaiyyətinə yüksək səviyyədə çatdırır."

Qəzetdə dərc edilən materialları həm ölkənin daxilində, həm də xaricində baş verən hadisələri dəqiq və ardıcıl əks etdirmək baxımından etibarlı mənbə adlandıran V.Rəhimzadə MEK-də mənbələrin qorunub saxlanılması istiqamətində görülən işləri təqdir edərək "İki sahil" qəzetinin 2017-ci ildə dərc edilmiş nüsxələrini MEK-in Milli Rəqəmsal Yaddaş (MRY) bazasına salınması üçün kitabxanaya təqdim etdi.

Görüşün yekununda Mərkəzi Elmi Kitabxana ilə "İki sahil" qəzeti arasında müəllif hüquqlarının müdafiəsinə dair müqavilə imzalandı və tərəflər arasında əməkdaşlığın daha da sıxlaşdırılmasının, çoxcəşidli müstəvilərdə inkişaf etdirilməsinin vacibliyi vurğulandı.

MEK-in əməkdaşlarından Mübariz Aşırlı, Allahverən Allahyarov, Aygün Səfərova və başqaları çıxış edərək görüşün əhəmiyyətini vurğuladılar. Daha sonra qonaqlar MEK-in əsas kitab saxlanclarının, Nadir kitab fondunun, Yer elmləri bölməsində Geoloqlar Cəmiyyətinin kolleksiyasının, Akademiklərin zalında Diplomatik fondun işi ilə yerində tanış oldular.

Xatırladaq ki, Mərkəzi Elmi Kitabxananın ölkənin aparıcı media qurumları ilə əməkdaşlığı davam edir. Hazırda MEK-də mətbuat orqanlarının nüsxələrinin PDF formatında kitabxananın elektron yaddaşına köçürülməsi və saxlanılması prosesi həyata keçirilir. Azərbaycan mətbuat qurumları arasında ilk belə addım "Yeni Azərbaycan" və "Azərbaycan" qəzetləri ilə bağlı atılıb. Layihə davam edir və gələcəkdə digər mətbu orqanları ilə də bu istiqamətdə işlərin görülməsi planlaşdırılır.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi 2017-ci ildəki fəaliyyəti ilə bağlı hesabat verib

Yanvarın 11-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 2017-ci ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə Dövlət Komitəsinin Mərkəzi Aparatı və bölgə şöbə müdirləri iştirak ediblər.

Müşavirədə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 10-da Prezident İlham Əliyevin iştirakı ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasına diqqəti cəlb edib. Qeyd edib ki, dövlətimizin başçısı nitqində ötən il Azərbaycanda keçirilən IV İslam Həmrəyliyi Oyunlarının İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində atılan önəmli addım adlandırıb və 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsinin İslam aləmində çox böyük dəstəyə və rəğbətə səbəb olduğunu vurğulayıb.



Dövlət Komitəsinin sədri "İslam Həmrəyliyi İli"nin İslamın əsl mahiyyətini özünə qaytarmaq, onu sülh və sabitlik ideyalarının tərənnümçüsünə çevirmək baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib. O, bu istiqamətdə həm ölkə daxilində, həm də ölkə xaricində çoxsaylı tədbirlərin həyata keçirildiyini deyib. Bu tədbirlərin Azərbaycanın İslam dünyasında gedən proseslərdə mövqeyini nümayiş etdirdiyini, İslam həmrəyliyinə, bütövlükdə dünyada sülh, əmin-amanlıq və əməkdaşlığa müsbət təsir göstərdiyini qeyd edib.

Hesabat dövründə dini sahədə bir sıra məsələlərin müsbət həllinə nail olduğunu bildirən Mübariz Qurbanlı ötən il Prezident İlham Əliyevin Fərmanı ilə DQİDK-nın tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasına da diqqət çəkib. O, Fondun yaradılması haqqında müvafiq Fərmanın imzalanmasının milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə hər zaman yüksək qiymət və dəstək göstərən dövlətimizin başçısının Dövlət Komitəsinə olan yüksək etimadının göstəricisi olduğunu deyib.

Müşavirədə DQİDK-nın dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarovun illik hesabatı dinlənilib. O, məruzəsində Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 yanvar tarixli Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsinə dair Tədbirlər Planına uyğun olaraq, Dövlət Komitəsinin həyata keçirdiyi tədbirlər barədə məlumat verib. Bildirib ki, Dövlət Komitəsi ayrıca və müxtəlif təşkilatlarla, xüsusilə Qafqaz Müsəlmanları İdarəsi ilə birgə 200-dən artıq ölkə və beynəlxalq əhəmiyyətli tədbirə təşkilatçılıq edib. Hesabat dövründə İslam həmrəyliyinin mahiyyətini özündə ehtiva edən 20-yə yaxın mövzuda 15-i Bakıda olmaqla respublikanın bütün bölgələrində 240-dan artıq tədbir təşkil olunub. "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda 25 regional konfrans, İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda 27 seminar-müşavirə baş tutub. Habelə mayın 4-6-da Bakıda keçirilmiş IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində DQİDK-nın təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda Dinlərarası Harmoniya" adlı panel və "Azərbaycan-İslam Mədəniyyətinin İncisi" adlı foto-sərgi keçirilib.

2017-ci ildə dini qurumların dövlət qeydiyyatına alınması prosesinin davam etdirildiyini deyən şöbə müdiri onların ümumi sayının 793-ə çatdığını bildirib. Qeyd edib ki, indiyədək dövlət qeydiyyatından keçmiş dini qurumlardan 765-i İslam, 28-i qeyri-islam təmayüllüdür.

O, dövlət qeydiyyatına alınmış 22 dini icmanın ləğv olunması ilə bağlı müraciət edildiyini, 19 dini qurumun ləğv olunması barədə məlumatın dini qurumların dövlət reyestrinə daxil edildiyini, üç dini icmanın sənədinin qanunvericiliyə uyğun tərtib edilmədiyinə görə geri qaytarıldığını vurğulayıb.

DQİDK-nın şöbə müdiri ölkə xaricindən qaynaqlanan müəyyən radikal, qeyri-ənənəvi və milli kimliyimizə zidd təbliğat aparan təriqətlərin dini fəaliyyət sahəsində cərəyan edən proseslərə təsir etmək məqsədilə ölkəyə dini ədəbiyyatın idxalına, çapına və yayılmasına xüsusi önəm verdiyi nəzərə alınaraq, ölkədə dini ayrı-seçkilik və qarşıdurma meyillərinin yayılmasına rəvac verilməməsi, dini dözümlülük mühitinə mənfi təsir göstərə biləcək ədavəti, nifrəti, ekstremizmi və radikallığı təbliğ edən dini təyinatlı ədəbiyyatın ölkəyə gətirilməsi və nəşrinin qarşısının alınması məqsədilə müvafiq qabaqlayıcı işlər gördüyünü bildirib. Qeyd edib ki, hesabat dövrü ərzində ümumilikdə 1540 adda dini məzmunlu ədəbiyyatın idxal edilməsi məsələsinə baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 63 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb. Nəşr olunmaq məqsədilə ekspertizaya təqdim edilmiş 313 adda dini ədəbiyyatın dördünün çapı məqsədəuyğun sayılmayıb. 613 adda dini təyinatlı ədəbiyyat üçün nəzarət markaları verilib. Hüquq-mühafizə orqanları tərəfindən ekspertiza məqsədilə təqdim edilmiş 2106 adda dini təyinatlı ədəbiyyata baxılaraq, onlardan 99-nun zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və istehsal olunduğu müəyyən edilib.

Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov dini təhlükəsizlik məqamlarına toxunub. O, dünyada dini zəmində qlobal təhlükəsizlik problemlərinin getdikcə artdığını nəzərə alaraq, bəzi xarici dövlətlərin təsiri altında olan siyasi və dini dairələrin din pərdəsi altında ölkəmizin dini mühitinə müdaxilə cəhdlərinin qarşısının alınması, ən əsası, dindar kontingentin İslam dünyasında gedən mürəkkəb və təhlükəli proseslərdən sığortalanması, o cümlədən radikal dini cərəyanlarla mübarizədə effektiviyin təmin olunması üçün aidiyyəti hüquq-mühafizə, icra və digər dövlət qurumları birgə aparılan kompleks işlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb.

Sonra Dövlət Komitəsinin 2018-ci il üçün fəaliyyət planı müzakirə olub. Qarşıya qoyulan məqsədlər, görüləcək işlər, problemlər, perspektivlər və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Güclü və müstəqil Azərbaycan növbəti zəfərlərə doğru!

## Prezident İlham Əliyev: "Azərbaycanda sabitliyin və inkişafın mənbəyi Azərbaycan xalqı, onun iradəsi və həyata keçirilən siyasətdir"



***Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin irəli sürdüyü fikirlərdən, ilk növbədə, belə qənaətə gəlmək olar ki, ötən ildə həyata keçirilən çoxşaxəli və məqsədyönlü siyasət, digər illərdə olduğu kimi, öz əhəmiyyətli uğurları ilə yadda qalıb. Belə ki, ölkə başçımız bir bu uğurların dünyanın bir çox yerlərində risklərin və təhlükələrin baş verdiyi bir zamanda, əldə edildiyini, xüsusilə, vurğulayıb. Məhz bu amili nəzərə alarsaq, bir daha əmin olarıq ki, Azərbaycanda mövcud olan sabitlik yeni-yeni uğurların əldə olunmasını təmin edir. SİTAT: "Dünyanın müxtəlif yerlərində risklərin, təhlükələrin artdığı, qanlı münaqişələrin, qarşıdurmaların geniş vüsət aldığı bir dövrdə Azərbaycan xalqı 2017-ci ildə də sabitlik və təhlükəsizlik şəraitində yaşamışdır. Azərbaycanda sabitliyin mənbəyi Azərbaycan xalqı, onun iradəsi və həyata keçirilən siyasətdir. Bu siyasət Azərbaycan xalqının milli maraqlarına söykənir".***

Lakin ölkəmizdə sabitliyin hökm sürməsi faktorunun da əsaslandığı daha bir mühüm amil var ki, bu, xalq-hakimiyyət vəhdətidir. Çünki bu birliyin və vəhdətin sayəsində Azərbaycan istər regionda, istərsə də beynəlxalq aləmdə öz liderliyini və öncüllüyünü qazandığı nailiyyətləri ilə sübuta yetirməkdədir. Bu baxımdan, ölkə rəhbərimizin keçirdiyi iclasda "Xalq-iqtidar birliyi, həyata keçirilən siyasətə xalqın hərtərəfli dəstəyi Azərbaycanın əldə etdiyi uğurların əsas şərtidir" tezisi qeyd olunan fikirləri tam olaraq əhatə etməkdədir.

### 2017-ci iqtisadi islahatlar ilində Azərbaycanda iqtisadi sahədə çox böyük uğurlar əldə olunub

Bu arada daha bir vacib məqama toxunmaq olar ki, bu məqam dünyanın bir sıra aparıcı maliyyə qurumlarının respublikamızda gedən inkişaf və tərəqqi reallığına verdikləri qiymətdir. Nazirlər Kabinetinin iclasında bu məsələyə toxunan dövlət rəhbərimiz də, qeyd edib ki, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda gedən proseslərə yüksək qiymət verir. Bu fakt özünü statistik rəqəmlərdə də göstərməkdədir. Belə ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə, 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə qərarlaşıb. Eyni zamanda, 2017-ci ildə Azərbaycanda qeyri-neft sektoru 2,5 faiz, sənaye 3,6 faiz, kənd təsərrüfatı isə 4,1 faiz artıb.

Ötən ildə Azərbaycanın valyuta ehtiyatları 4,5 milyard dollar artaraq, 42 milyard dollar təşkil edib və adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə, Azərbaycan dünya miqyasında ön yerlərdən birini tutur.

2017-ci ildə Azərbaycan iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub. Bu isə, həm də onu göstərir ki, həm yerli və həm də xarici investorlar Azərbaycana vəsait qoymaqda maraqlıdırlar. Bu baxımdan, Azərbaycanın sabit ölkə olaraq qiymətləndirilməsi reallığı növbəti dəfə öz təsdiqini tapır. Çünki sabit olan və gözəl gələcəyi olan ölkələrə xaricdən investisiyalar qoyulur. Ölkəmizdə olan mühit isə bütün bu kimi standartlara cavab verməkdədir.

Beləliklə, ötən 2017-ci ildə ixrac 19 faiz, qeyri-neft ixracımız isə 24 faiz artıb, 2017-ci ildə 2016-cı ilə nisbətən Azərbaycanı 500 min turist ziyarət edib, 2017-ci ildə Azərbaycanın ticarət balansının müsbət saldosu 6,2 milyard dollar təşkil edib və ötən il 221 min yeni iş yeri açılıb ki, onların 177 mini daimidir. Həmçinin, Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Bu isə dünya miqyasında ən yaxşı nəticələrdən biridir.

### 2017-ci ildə Azərbaycanda iqtisadi və sosial infrastruktur layihələri uğurla icra edilib

Ölkə başçımız hər il olduğu kimi, ötən il də regionlarımıza səfərlər edərək, müxtəlif mühüm tədbir və açılışlarda iştirak edib. Bu, həm də Onun xalqla yaxın təmasda olmasının, hər zaman xalqın maraqlarını ifadə etməsinin bariz göstəricisi olaraq dəyərləndirilir. Prezident İlham Əliyev 2017-ci ildə 30-dan çox rayona səfər edib, yeni müəssisələrin açılışında, təməlqoyma mərasimlərində iştirakçısı olub, bölgələrdə gedən vəziyyətlə əyani şəkildə tanış olaraq, müvafiq tapşırıq və tövsiyələr verib, habelə, qanunvericilik aktları imzalayıb.

Ümumiyyətlə, ölkə başçımızın tapşırıqları əsasında keçən il infrastruktur layihələrinin icrası uğurla davam etdirilib, bu məqsədlər üçün böyük vəsait ayrılıb. Əlbəttə ki, bütün bu kimi mühüm işlərin nəticəsində növbəti nailiyyətlər qeydə alınıb. Misal üçün, elektrik təchizatı yaxşılaşdırılıb, yeni yarımstansiyalar işə düşüb, qazlaşdırma 93 faizə çatıb, 100 min hektardan çox sahə suvarılmağa başlanıb, 1300 kilometr avtomobil yolu, o cümlədən, beş yüzdən çox kəndə yeni yol salınıb, içməli su layihələri uğurla icra edilib.

O cümlədən, sosial infrastrukturla bağlı çox ciddi addımlar atılıb - 133 yeni məktəb tikilib, 14 məktəb əsaslı təmir edilib, 500-ə yaxın məktəbdə isə cari təmir aparılıb, otuz tibb müəssisəsi tikilib və əsaslı təmir edilib, iki Olimpiya İdman Kompleksi istifadəyə verilib.

Prezident İlham Əliyev demək olar ki, bütün çıxışlarında Azərbaycanda aparılan siyasətin sosial siyasət olduğunu vurğulayıb. Məhz bunun da nəticəsidir ki, ölkəmizdə 116 min ailə, 400 mindən artıq insan ünvanlı sosial yardım alır, orta hesabla hər ailəyə 150 manat sosial yardım göstərilir. Söz yox ki, bu həyata keçirilən uğurlu sosial siyasətin aşkar təzahürüdür.

Onu da qeyd edək ki, 2017-ci ildə 2300 qaçqın və məcburi köçkün ailəsi, 12 min insan yeni evlərə və mənzillərə köçürülüb. Eləcə də, düşməndən azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpası istiqamətində mühüm tədbirlər reallaşdırılıb. Prezident İlham Əliyev bununla bağlı bildirib ki, Cocuq Mərcanlı kəndinin bərpası tarixi nailiyyətdir, yeni salınmış 150 evdən ibarət gözəl qəsəbədə yeni həyatı başlayıb: "Cocuq Mərcanlının qısa müddət ərzində bərpası, yenidən qurulması onu göstərir ki, işğaldan azad ediləcək bütün ərazilərdə qısa müddət ərzində, bütün təmir-bərpa işləri aparılacaq, şəhərlər, kəndlər yenidən qurulacaq və bu gün dağılmış vəziyyətdə olan şəhər və kəndlərə tezliklə həyat qayıdacaq".

# Güclü və müstəqil Azərbaycan növbəti zəfərlərə doğru!

## Prezident İlham Əliyev: "Azərbaycanda sabitliyin və inkişafın mənbəyi Azərbaycan xalqı, onun iradəsi və həyata keçirilən siyasətdir"

### 2017-ci ildə energetika və nəqliyyat sahəsində tarixi hadisələr baş verib

Prezident İlham Əliyevin yorulmaz və qətiyyətli siyasəti nəticəsində, Azərbaycanda energetika və nəqliyyat sahəsində də möhtəşəm uğurlara imza atılıb. Nazirlər Kabinetinin iclasındakı çıxışında ölkə rəhbərimiz bu istiqamətdə görülən işlər barədə fikirlərini bildirərkən, qeyd edib ki, "Azəri-Çıraq-Günəşli" yatağı üzrə kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması imkan verəcək ki, bundan sonra uzun illər ərzində hasilat səviyyəsinin sabit qalmasına imkan verəcək. O cümlədən:

1.Azərbaycanın neft sektoruna xarici investorlar tərəfindən bundan sonra da böyük həcmdə sərmayə qoyulacaq;

2. İnvestisiyalar iqtisadiyyatın bütün sahələrinə öz müsbət təsirini göstərəcək, yeni iş yerlərinin, yerli müəssisələrin yaradılmasına təkan verəcək;

3. Azərbaycanın iqtisadi inkişafının planlaşdırılmasına və neft amilindən asılılığın daha da azaldılmasına şərait yaradacaq;

4. Kontraktların uzadılması SOCAR-ın payının 11 faizdən 25 faizə artmasına, mənfəət neftinin 75 faizinin Azərbaycana qalmasına səbəb olub;

5. Azərbaycan 3,6 milyard dollar bonus qazanacaq.

6. "Cənub Qaz Dəhlizi"nin uğurlu icrası təmin edilmişdir:

7. "Şahdəniz-2" layihəsinin icrası 99 faizə çatmışdır;

8. Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz kəməri 93 faiz icra edilmişdir;

9. TANAP layihəsinin icrası 90 faiz təşkil edir;

10. TAP layihəsinin icrası 60-62 faiz səviyyəsindədir.

Beləliklə, fakt budur ki, energetika sahəsində bu iki önəmli layihə Azərbaycanın bundan sonra da uğurlu inkişafını təmin edəcək. Həmçinin, transmilli nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində önəmli addımlar atılıb. Məsələn, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı, nəinki Azərbaycan, bölgə üçün, dünya üçün önəmli hadisə olub və əlbəttə ki, bu tarixi layihənin icrası Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirməkdədir. Eyni zamanda, Azərbaycan "Şimal-Cənub Nəqliyyat Dəhlizi"nin icrası istiqamətində üzərinə düşən vəzifələri də uğurla icra edib.

### Azərbaycan dünyada həm islam həmrəyliyinin gücləndirilməsi, həm də multikulturalizmin təbliği üçün əvəzolunmaz ölkəyə çevrilir

Ötən il daha bir möhtəşəm tarixlə - Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları ilə yaddaşlara həkk olundu. Beləliklə, hesab etmək olar ki, Azərbaycanın siyasi, diplomatik, iqtisadi uğurlar məcrasında idman sahəsində də həmin nailiyyətləri qazanıb və zəfərlər sırasına daxil edib. Prezident İlham Əliyev bubunla bağlı qeyd edib ki, IV İslam Həmrəyliyi Oyunları dünyada islam həmrəyliyinin gücləndirilməsi istiqamətində atılan önəmli addımdır Azərbaycanın niyyətinin və siyasətinin göstəricisidir: "2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi islam aləmində çox böyük dəstəyə və rəğbətə səbəb olmuşdur. 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi göstərir ki, Azərbaycan xalqı öz tarixi və dini köklərinə bağlıdır. Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Azərbaycan dünya miqyasında həm islam həmrəyliyi işlərinin təşkili, eyni zamanda, multikulturalizmin təbliği üçün əvəzolunmaz ölkəyə çevrilir".

### Dağlıq Qarabağ probleminin həlli ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür

Azərbaycan xalqının bir nömrəli problemi olaraq vurğulanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın mövqeyi barədə mühüm fikirlər önə sürən Prezident İlham Əliyev xatırladıb ki, dövlətimizin bu istiqamətdəki mövqeyi ədalətli, beynəlxalq hüquqa əsaslanan və beynəlxalq dəstək qazanan mövqedir. Belə ki, beynəlxalq aləm Dağlıq Qarabağda separatçı rejim tərəfindən keçirilmiş qanunsuz "referendum"u tanınmayıb və Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdığını nümayiş etdirib. 2017-ci ilin sonunda Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Zirvəsində qəbul edilmiş Bəyannamədə "Şərq tərəfdaşlığı"na üzv olan ölkələrin ərazi bütövlüyü və suverenliyi Avropa İttifaqı tərəfindən birmənalı şəkildə dəstəklənib.

Ölkə başçımız vurğulayıb ki, aprel hadisələrindən sonar müxtəlif şərtlər irəli sürən Ermənistan heç bir şərt olmadan danışıqlar masası arxasına oturmağa məcbur olub. "Dünya miqyasında güclü ordular sırasında olan Azərbaycan Silahlı Qüvvələri öz hərbi gücünü daha da artırmışdır. Azərbaycan Ordusu bundan sonra da güclənəcək və istənilən tapşırığı yerinə yetirməyə hazırdır"-deyə dövlət başçımız bildirib.

### 2018-ci ildə qarşıda duran vəzifələr uğurla icra olunacaq

Söz yox ki, əldə edilən uğurların 2018-ci ildə də əldə ediləcəyinə kimsə şübhə edə bilməz. Bu barədə çıxış edən Prezident İlham Əliyev Cənabları da vurğulayıb ki, 2017-ci ildə iqtisadi sahədə müşahidə olunan meyillər 2018-ci ildə daha da güclənəcək və daha böyük uğurlar əldə olunacaq. Bunun üçün isə, bir sıra nəhəng potensiallar mövcuddur. "Neft Fondunun gəlirlərinin artırılması ölkə qarşısında duran önəmli layihələrin icrasına imkan verəcək və Azərbaycanın iqtisadi dayanıqlılığını təmin edəcək"-deyə qeyd edən ölkə rəhbərimiz, onu da xatırladıb ki, Azərbaycan xarici borcun səviyyəsinə görə, müsbət mənada, dünyada qabaqcıl ölkələrdən biridir. SİTAT: "Xarici borcun səviyyəsi aşağı düşməlidir. İqtisadi gücün artması Azərbaycanın müstəqil siyasətini davam etdirməyə, siyasi çəkisini artırmağa və uzunmüddətli inkişaf strategiyasını uğurla reallaşdırmağa imkan verir.

2018-ci ildə Azərbaycan iqtisadiiyatına 15 milyard dollar səviyyəsində sərmayə qoyuluşu gözlənilir. Qeyri-neft sektorunun inkişafı daim diqqət mərkəzindədir. Sahibkarlığın inkişafına dəsətk, yeni iş yerlərinin və istehsal müəssisələrinin yaradılması davamlı xarakter daşıyacaq. İqtisadi sahəyə, sənaye potensialının, kənd təsərrüfatının inkişafına göstərilən dəstək və əldə edilən nəticələr, deməyə əsas verir ki, yeni iş yerlərinin yaradılması prosesi 2018-ci ildı də sürətlə gedəcək. Özünüməşğulluq proqramı üçün ayrılmış 35 milyon manat vəsait 7 min ailənin büdcəsinə böyük dəstək olacaq. 2018-ci ildə 20 min köçkün yeni evlərə və mənzillərə köçürüləcək. Sosial infrastruktur layihələrinin icrası istiqamətində bölgələrdə modul tipli 137 məktəb tikiləcək, altı şəhərdə yeni mərkəzi rayon xəstəxanası istifadəyə veriləcək, dörd Olimpiya İdman Kompleksinin tikintisi nəzərdə tutulur, Sənaye Parklarının yaradılması istiqamətində praktiki addımlar atılır".

Belə ki, Mingəçevirdə Yüngül Sənaye Parkının ilk fabriklərinin açılışı bu il gözlənilir. Sumqayıt Kimya Sənaye Parkında işlər uğurla gedir. 2017-ci ilin sonunda dörd yeni müəssisənin açılışı oldu və üç müəssisənin təməli qoyuldu. "Beləliklə, 2018-ci il də sənaye inkişafı ilə bağlı əlamətdar il olacaq"-deyə vurğulayan Prezident İlham Əliyev qarşıda duran planlar barədə də danışıb və bildirib ki, 10 yeni xalça fabrikinin açılışı nəzərdə tutulur. Beləliklə, ilin sonuna qədər xalça fabriklərinin sayı 20-yə çatmalıdır.

Həmçinin, qeyd olunub ki, 2018-ci il də kənd təsərrüfatının inkişafı üçün uğurlu olacaqdır. Ərzaq təhlükəsizliyi ilə, xüsusilə, taxılçılıqla bağlı əlavə tədbirlər görüləcək. İdxaldan asılılıq azalacaq, ixracyönümlü məhsulların həcmi artacaq.

Pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə həyata keçirilən tədbirlər davam etdiriləcək.Yeni kənd təsərrüfatı texnikasının alınması üçün 160 milyon manat vəsait nəzərdə tutulub. 2018-ci ildə daha il üç "ASAN Xidmət" mərkəzi fəaliyyətə başlayacaq və mərkəzlərin sayı 15-ə çatacaq. Bir ildən sonra "ASAN xidmət" mərkəzlərinin sayı 20-yə çatdırılacaq.

O da vurğulanıb ki, "ASAN xidmət" ictimai xidmət sahəsində çox ciddi dönüş yaradıb. Eləcə də, turizmin inkişafı ilə bağlı bu il də əlavə tədbirlər görüləcək. Belə ki, 2016-cı ildə xarici turistlərin gəlişi 24 faiz artıb, keçən il isə əlavə daha 20 faiz artım olub və rekord səviyyəyə çatıb. Ümumilikdə isə, 2017-ci ildə Azərbaycana 2,7 milyon xarici vətəndaş gəlib: "Azərbaycanda turizmin inkişafının səbəbləri mpvcud sabitlik, təhlükəsizlik, qonaqpərvərlik, müasir infrastruktur, tarixi abidələr və turizm sahəsinə göstərilən dövlət dəstəyidir. Həmçinin, beynəlxalq tədbirlər turistləri Azərbaycana cəlb edir".

Dövlət rəhbərimiz bildirib ki, 2018-ci ildə Ələt Dəniz Ticarət Limanının birinci mərhələsinin başa çatması ilə Azərbaycan Xəzər hövzəsində ən böyük dəniz ticarət limanına sahib olacağını bildirib, həmçinin, 2018-ci ilin Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyəti üçün çox önəmli il olacağını deyib. Belə ki, BTQ artıq Avrasiyanın nəqliyyat xəritəsini təzələyib.

"Şimal-Cənub Nəqliyyat Dəhlizi" layihəsinin icrası Azərbaycanda dəmir yolunun sürətinin artırılmasını tələb edir. Bu məqsədlə Bakı-Yalama və Bakı-Astara dəmir yolunun tədricən yenidən qurulması, təmiri ilə bağlı işlər görüləcək. Ləki-Qəbələ dəmir yolu tikiləcək. "Şahdağ" xizək kurortuna da dəmir yolunun çəkilişi planlaşdırılır"-deyə qeyd edən Prezident, eləcə də, vurğulayıb ki, yeni yolların çəkilməsi, qazlaşdırma, suvarma və digər istiqamətlər üzrə işlər davam etdiriləcək.

### 2018-ci il Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli"dir

Dövlət başçımız 2018-ci ilin Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" olduğnu bəyan edib və xatırladıb ki, yüz il əvvəl müsəlman aləmində ilk demokratik respublika Azərbaycanda yaradılıb. SİTAT: "Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl, ən ülvi demokratik dəyərləri, nəinki bəyan, öz praktiki fəaliyyətində onların təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Bugünkü Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqdir və bu ənənələri yaşadır. İndiki Azərbaycan Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edilə bilməz".

Beləliklə, ötən 2017-ci ilin yekunlarına və qarşıdakı duran vəzifələrə həsr olunmuş iclasda, bir daha sübut olundu ki, müstəqil və demokratik Azərbaycan Respublikası Prezident İlham Əliyevin qətiyyətli, müdrik və məqsədyönlü siyasəti nəticəsində, növbəti uğurlu ilə qədəm qoyub və əldə ediləcək hər bir nailiyyət ölkəmiz və xalqımızın rifah halının daha da yaxşılaşdırılmasına, eyni zamanda, digər əhəmiyyətli faktorlara əsaslanacaq. Bu isə, ilk növbədə, Azərbaycan xalqının öz ölkə rəhbərinin ətrafında daha da sıx birləşməsinin bariz təzahürdür!

**Rövşən NURƏDDİNOĞLU**

# Naxçıvanda istehsal olunan siqaret məhsulunun 90 faizi xaricə ixrac edilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" tütünçülüyün inkişafı sahəsində geniş imkanlar açıb. Bu gün Naxçıvan Muxtar Respublikasında da tütünçülüyün inkişafı üçün lazımi addımlar atılır. Bu məqsədlə ötən il muxtar respublikanın Kəngərli rayonunun Təzəkənd və Xıncab kəndlərində təcrübə məqsədilə tütün əkini aparılıb.

"Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının "Cahan Tabak" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən rayonun həmin kəndlərində əkin keçirilib. Ötən il rayonda Tütün Yetişdirmə Təsərrüfatı fəaliyyətə başlayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ötən il oktyabrın 28-də həmin təsərrüfatda yaradılmış şəraitlə tanış olub, lazımi tapşırıq və tövsiyələrini verib.

Təcrübə məqsədilə Kəngərli rayonunda əkilmiş tütün sortlarından gələcək illərdə muxtar respublikanın digər bölgələrində də istifadə olunacağı gözlənilir. 2,5 hektar ərazini əhatə edən təsərrüfatda şitil yetişdirmək üçün 2 min 304 kvadratmetr sahəsi olan 5 istixana, yeraltı su anbarı, 1350 kvadratmetr tütün qurutma yeri və 420 kvadratmetr sahəsi olan 2 anbar yaradılıb, Türkiyə mənşəli müxtəlif texnika və texnoloji avadanlıqlar alınıb. İlkin olaraq Kəngərli rayonunda 9 hektar sahədə sınaq məqsədilə məhsuldar "Virciniya" və "Oriental" tütün sortları əkilib, bu günədək 11 tondan çox quru tütün istehsal olunub. Təsərrüfatda 60 nəfər işlə təmin edilib.

Əkin zamanı yerli torpaq və iqlim şəraiti nəzərə alınaraq məhsuldar sortlardan istifadə olunur. Tütünün becərilməsi, yığımı və qurudulması müasir texnoloji qaydalara uyğun aparılır ki, bu da keyfiyyətli məhsul istehsalına imkan verir. Təsərrüfatda yetişdirilən şitillər muxtar respublikada tütünçülüklə məşğul olan torpaq mülkiyyətçilərinin tələbatını tam ödəyəcək. Eyni zamanda, burada tütün qəbulu da həyata keçiriləcək. Dövlət tərəfindən tütün istehsalçılarına subsidiyaların verilməsi və tütün qəbulu üçün yaradılan şərait bu sahəyə marağı xeyli artırıb. Təkcə keçən il Kəngərli rayonunun 10 kəndinin torpaq mülkiyyətçiləri tütün əkini üçün müraciət edib. Bu il 100 hektardan artıq sahədə tütün əkini nəzərdə tutulur.

Təcrübə məqsədilə rayonda əkilmiş tütün sortlarından gələcək illərdə muxtar respublikanın digər bölgələrində də istifadə olunacağı gözlənilir.

Mütəxəssislərin bildirdiyinə görə, ölkəmizin təbii-iqlim şəraiti 1 hektar sahədən 35-37 sentner keyfiyyətli tütün alınmasına imkan verir. Xüsusilə yaz və payız aylarında iqlimin isti olması yüksəkkeyfiyyətli məhsul alınması üçün əlverişlidir. Mütəxəssislərə görə, ölkəmizdə ən keyfiyyətli məhsul Şəki-Zaqatala bölgəsində və Naxçıvan Muxtar Respublikasında əldə olunur.

Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev ölkəmizdə tütünçülüyün inkişafı məsələsinə toxunaraq deyib: "Tütünçülüyə göstərilən diqqət öz bəhrəsini verir. Əgər 2016-cı ildə 3500 ton tütün tədarük olunmuşdusa, keçən il bu rəqəm 5200 tona çatıb. Bu il də bir çox önəmli tədbirlər görüləcək, qurutma kameraları alınacaq və fermerlərə əlavə dəstək veriləcək. Biz tütünçülüyün bərpasına çox yaxınıq və gələcəkdə tütünü nəinki xammal kimi, hazır məhsul - siqaret şəklində ixrac etməliyik".

Qeyd edək ki, bu gün muxtar respublikada fəaliyyət göstərən "Cahan Tabak" Məhdud Məsuliyyətli Cəmiyyətində bazarın tələbatına uyğun olaraq 11 növdə filtrli siqaret istehsal olunur. Bu məhsulların 10 faizi daxili tələbatı ödəyir, 90 faizi isə 8 xarici ölkəyə ixrac olunur. Görülən işlər belə deməyə əsas verir ki, tezliklə muxtar respublika iqtisadiyyatında tütün sektorunun çəkisi ciddi ölçüdə artacaq, bu sahənin inkişafı həm də yüzlərlə yeni iş yerinin yaranmasına səbəb olacaq.

***Rauf KƏNGƏRLİ***

***AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosunun rəhbəri***

# Fazil Mustafa: "Bu ilin Cümhuriyyət İli elan edilməsi çox yüksək bir addımdır"

"Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyət İli" elan edilməsi ölkə başçısının Cümhuriyyət ideyasına olan münasibətidir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Fazil Mustafa deyib.



Onun sözlərinə görə, hər kəs bu sərəncamdan sonra Cümhuriyyət ideyasının nə qədər dəyərli olduğunu bir daha dərk edəcək. Cümhuriyyətin 100 illiyinin qeyd olunması yönündə təşəbbüs göstərəcəklər. Prezident sərəncam imzalayıb və bu istiqamətdə irəli gələn məsələlərin ətrafında məmurlar tərəfindən ciddi addım atılmayıb. Bu il Cümhuriyyət ili elan edildikdən sonra əsas verəcək ki, hər kəsin amalı buna yönəlsin. Bu məsələ könül işidir, qəlb işidir. Təəssüf ki, bizdə əksəriyyət gözləyir ki, konkret tapşırıqlar verilsin və onun çərçivəsində hansısa işlər aparılsın. Ancaq hamı öz təşəbbüsünü ortaya qoymalıdır. Buna görə də Prezidentin bu qərarını yüksək qiymətləndirir və alqışlayıram. Bu çox yüksək bir addımdır".

# Rusiyalı deputat: Soraq kitabı kimi istifadə edilə biləcək nəşrlərdə təhrif olunmuş məlumatların yayılmasına yol verilməməlidir



Xəbər verildiyi kimi, Moskvadakı "Çitay qorod" kitab mağazalarında "Stranı mira" ("Dünya ölkələri") adlı ensiklopediya sərbəst satışdadır. Bu kitabda qondarma "DQR" barədə də məlumat var. Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-ın müxbiri ilə söhbətində bu məlumatı şərh edərək deyib: "Dağlıq Qarabağ münaqişəsini dinc yolla, diplomatik vasitələrlə həll etmək üçün hazırda çox böyük səy göstərilir. Ali səviyyədə danışıqlar aparılır. Şübhəsiz, bu çox kəskin məsələdir. Bu münaqişə artıq neçə-neçə dinc sakinin - sadəcə yaşamaq, uşaqlarını böyütmək, dinc əməklə məşğul olmaq istəyən vətəndaşların həyatı bahasına başa gəlib. Ona görə də gərginliyin eskalasiyasına təhrik edən, danışıqlar prosesini mürəkkəbləşdirən hər hansı hərəkətlərin qarşısı, əlbəttə, qətiyyətlə alınmalıdır".

Rusiyalı deputatın vurğuladığı kimi, başa düşmək lazımdır ki, bu gün dünyamızda neqativ geosiyasi proseslər onsuz da çoxdur. Ona görə də bizim kövrək dünyamızı qoruyub saxlamaq üçün məhz bu gün öz məsuliyyətimizi və münaqişənin dinc yolla tənzimlənməsinə maksimal dərəcədə kömək etməyin zəruriliyini dərk etməyə həmişəkindən daha çox ehtiyac var. D.Savelyev deyib: "Xüsusən soraq kitabı kimi istifadə edilə biləcək nəşrlərdə təhrif olunmuş məlumatların yayılmasına yol verilməməlidir. Axı bu, məsuliyyətdir, o cümlədən bizim övladlarımız qarşısında, gələcəyimiz qarşısında məsuliyyətdir. Belə məlumatların təqdim edilməsində korrektliyi gözləmək xüsusilə vacibdir".

# XİN: "Fransa erməni separatçılarının ölkəyə girişinə qadağa qoymalıdır"



"Fransa tərəfi ATƏT-in Minsk Qrupunun həmsədri olaraq Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təmsilçilərinin Şenqen viza qaydalarını pozaraq, Ermənistanın diplomatik pasportları ilə Fransa ərazisinə daxil olmasının qarşısını almaq üçün zəruri tədbirlər görməlidir". Bunu SİA-ya Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev qondarma rejimlə əlaqədar Fransada keçirilən tədbirlərlə bağlı bildirib. XİN rəsmisi deyib ki, 2 iyul 2015-ci ildə Fransa hökuməti tərəfindən xarici işlər və daxili işlər nazirlikləri səviyyəsində yerli prefekturalar və ali komissarlara sirkulyar təlimat göndərilib: "Həmin təlimatda yerli özünü idarəetmə qurumlarının beynəlxalq əməkdaşlıq sahəsində səlahiyyət məhdudiyyətlərinə dair xəbərdarlıq edilir və mərkəzi hakimiyyətin siyasətinə və Fransanın beynəlxalq öhdəliklərinə zidd olaraq, yerli orqanların Fransa hökumətinin tanımadığı qeyri-qanuni rejimlər, o cümlədən qondarma Dağlıq Qarabağla beynəlxalq əməkdaşlığa dair sənədlər imzalamasına qadağa qoyulur".

H.Hacıyev qeyd edib: "Fransanın hansısa qəsəbə və ya şəhərciyinin Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimlə əlaqə qurması özü-özünü aldatmaqdan başqa bir şey deyildir. Təcrübə göstərir ki, bu kimi qəsəbə və şəhərciklərin rəhbərləri ərazidə yaşayan erməni icmasının yerli seçkilərdə dəstəyini qazanmaq üçün bu kimi öz fəaliyyətlə məşğul olurlar. Hətta bu məqsədlə mənəvi-etik çərçivələri belə aşaraq qondarma rejimin işğal, təcavüz və qanlı etnik təmizləmə nəticəsi olmasına belə göz yummağa çalışırlar. Erməni lobbi təşkilatları regionda davamlı sülhün əldə edilməsinə və münaqişənin Fransanın da həmsədr olduğu ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə danışıqlar yolu ilə həllinə töhfə vermək əvəzinə, bu yolla erməni diaspora nümayəndələrini aldatmaq və onların vəsaitlərini mənimsəməklə məşğuldur. Hesab edirik ki, Fransa tərəfi ATƏT-in Minsk Qrupunun həmsədri olaraq Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təmsilçilərinin Şenqen viza qaydalarını pozaraq Ermənistanın diplomatik pasportları ilə Fransa ərazisinə daxil olmasının qarşısını almaq üçün zəruri tədbirlər görməlidir".

# Etirazçılar: "Ermənistan rəhbərliyinin yürütdüyü siyasətin təməlində zorakılıq dayanır"



Ermənistanda 2016-cı ilin iyulunda baş vermiş silahlı qiyamla bağlı həbs olunanlara qarşı təzyiqlərin artması cəmiyyətdə narazılıqla qarşılanıb. Bir qrup vətəndaş fəallara dəstək məqsədilə İrəvanda mərkəzi prospekti bağlamağa cəhd göstərib. Polisin müdaxiləsi ilə etirazçıların qarşısı alınıb.

AZƏRTAC xəbər verir ki, 2016-cı ilin iyulunda İrəvanda baş vermiş silahlı qiyamla bağlı həbs olunan 18 nəfərin məhkəməsi növbəti dəfə də qalmaqalla keçib. Fəalların vəkilləri hakimə hüquqlarını qoruduqları şəxslərin həbsxanada zorakılığa məruz qalmaları ilə bağlı faktlar təqdim ediblər. Vəkil Ara Karagözyan deyib ki, "Sasna Srer" qrupunun üzvləri daim təhdid altındadırlar. Məhbuslar saxlanıldıqları Nubaraşen təcridxanasında tez-tez döyülür, mənəvi təzyiqlərlə üzləşirlər. Bu qanunsuzluqla bağlı Baş Prokurorluğa etiraz məktubları ünvanlansa da nəticəsi olmayıb.

Zorakılığa məruz qalanlarla Nubaraşen həbsxanasında görüşən hüquq müdafiəçiləri onların saxlanılma şəraitinin də yaxşı olmadığını deyiblər. Vəkillər bildiriblər ki, Ermənistan prokurorluğu hər vəchlə "Sasna Srer" qrupunun üzvlərinin işini ağırlaşdırmağa çalışır. Bu açıqlamalar cəmiyyət tərəfindən də narazılıqla qarşılanıb. Bir qrup vətəndaş fəallara dəstək məqsədilə mərkəzi Arşakunyaç prospektini bağlamağa cəhd göstərib. Polisin müdaxiləsi ilə etirazçıların qarşısı alınıb.

Etirazçılar fəalları sonadək dəstəkləyəcəklərini deyiblər. Onlar hüquq mühafizə orqanlarını həbsxanalarda mənəvi, psixoloji təzyiqlərə son qoymağa çağırıblar. Bildiriblər ki, hakim müxtəlif bəhanələrlə fəalların işini ağırlaşdırmağa çalışır. Məhbuslar buna etiraz olaraq aclıq aksiyasına başlayıblar. Ermənistandakı cinayətkar rejimin əleyhinə olan hərəkat rəhbəri Karapet Rubinyan qeyd edib ki, vətəndaşların silahlı qrup üzvlərini dəstəkləməsi ölkədə sadə insanların hökumətə inamının olmadığını göstərir. Odur ki, Ermənistan rəhbərliyinin yürütdüyü siyasətin təməlində zorakılıq, narkoticarət və avtoritar idarəçilik üsulu dayanır. Ona görə də Serj Sarkisyan hökuməti beynəlxalq insan haqları məhkəməsi qarşısında cavab verməlidir.

# 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması milli-mənəvi dəyərlərimizə və tariximizə olan münasibətdir

*Milli Məclisin deputatı, tarix elmləri doktoru Fəzail İbrahimlinin yap.org.az-a müsahibəsi*

***- Fəzail müəllim, bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 ili tamam olur. 1918-ci ildə yaradılmış Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə əhəmiyyəti nədən ibarətdir?***

- Ümumiyyətlə, Xalq Cümhuriyyətinin yaradılması bütövlükdə Azərbaycan tarixinin şərəf və ləyaqət səhifəsidir. Çünki bu tarix Azərbaycanın dövlət müstəqilliyinin elan olunduğu tarixdir, Azərbaycanın öz ərazisinə sahib çıxdığı, dünya dövlətləri sırasına qoşulduğu bir gündür. Yəni bu, adi tarixlərdən deyil.

Həmin dövrdə zaman məsələni kəskin qoymuşdu. Məsələnin mahiyyəti ondan ibarət idi ki, Rusiya imperiyası dağılmış, onun tərkibində olan xalqların müstəqilliyi üçün münbit şərait yaranmışdı. Həmin xalqlar öz talelərini həll etməli idilər. Baxmayaraq ki, o vaxtlar Zaqafqaziya Seymi olsa da, dağılmaq üzrə idi. Məsələn, gürcülər Almaniyanın vədlərinə arxalanıb seymdən çıxdılar. Ermənilər də həmişəki kimi xaricdən dəstəyi olduğu üçün həmin addımı atmağa hazırlaşırdılar. Amma Azərbaycan xalqı özü öz taleyini həll etməli idi. Çünki gürcü və ermənilərdən fərqli olaraq Azərbaycanın bölünmə ehtimalı var idi, bəzi güclər Azərbaycanın ərazisini qəsb etmək istəyirdilər. Həmçinin, Bakı şəhərinin Rusiyanın tərkibinə verilməsi təhlükəsi var idi. Yəni, 1918-ci ildə reallıq belə idi. Xalqımız ya ayağa qalxıb öz dövlətini qurmalı idi, ya da torpağımız parçalanıb bölünməli idi.

Məhz o dövrdə Azərbaycanın tarixi taleyini həll etmək iqtidarında olan ziyalılar, ictimai-siyasi xadimlərimiz bu reallığı dərk edərək müstəqilliyimizin elan olunması üçün mücadilə etdilər. Onların bir qrupu Avropada təhsil almışdılar, digərləri isə yüksək demokratik düşüncəyə sahib idilər. Həmin insanlar Azərbaycanın tarix qarşısında bu çətin məsuliyyətini kifayət qədər dərk edib ayağa qalxaraq istiqlaliyyətimizi elan etdilər. Hansı ki, o dövrdə ermənilərin ərazi iddiaları var idi və bu məsələdə kənardan dəstək alırdılar. Həmçinin, Rusiya imperiya iddialarından əl çəkməmişdi. Bütün çətinliklərə baxmayaraq, həmin şəxslər müstəqil dövlət qurdular. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, tariximizdə şanlı və şərəfli yer tutur. Bu gün Azərbaycan dövləti həmin tarixlə qürur duyur. Təsadüfi deyil ki, Ümummilli lider Heydər Əliyev indiki müstəqil dövlətimizin Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan edib.

***- Bəs Azərbaycan parlamentinin fəaliyyəti haqqında nə deyə bilərsiniz? Fəaliyyət göstərdiyi müddət ərzində qanunverici orqan respublikanın həyatı üçün vacib olan hansı sənədləri qəbul etdi?***

- Parlamentin açılışı 1918-ci il dekabrın 3-ə təyin olunsa da, Bakıda fəaliyyət göstərən rus və erməni Milli Şuraları Azərbaycan Parlamentinin açılmasına hərtərəfli mane olmaq üçün bu ərəfədə Bakıya gəlmiş Müttəfiq qoşunlarının baş komandanı general Tomsondan istifadə etməyə çalışırdılar. General Tomsonla aparılan danışıqlarla əlaqədar olaraq və qəzalardan bütün deputatların Bakıya gələ bilməsini nəzərə alaraq Parlamentin ilk iclasının açılışı dekabrın 7-ə keçirilir. 1918-ci il dekabrın 7-i H.Z.Tağıyevin Nikolayev (indiki İstiqlaliyyət) küçəsində yerləşən keçmiş qız məktəbinin binasında müsəlman Şərqində ilk parlamentin birinci iclasının açılışı olur.



Ə.Topçubaşov Parlamentin sədri, Həsənbəy Ağayev isə sədrin birinci müavini seçilirlər. Parlamentin 3 nəfərdən ibarət katibliyi də seçilir, Mehdi bəy Hacınski baş katib seçilir.

Azərbaycan Parlamenti yarandığı ilk gündən öz işlərini demokratik cümhuriyyətlərə xas təşkilati prinsiplər əsasında qurur. Artıq 1919-cu ilin axırlarına yaxın Parlamentdə 11 müxtəlif partiya fraksiyası və qrupunu cəmi 96 deputat təmsil edirdi. Bütün partiya fraksiyaları və qrupları öz fəaliyyət proqramları haqqında bəyanatlar verirlər. Bu bəyanatlarda ümumi bir məqsəd var idi - gənc Azərbaycan Cümhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığını, milli və siyasi hüquqlarını qoruyub saxlamaq, Azərbaycan xalqının və hökumətinin digər xalqlar və dövlətlərlə, xüsusilə, qonşu dövlətlərlə dostluq əlaqələrini yaratmaq və möhkəmləndirmək, respublikada hüquqi-demokratik dövlət quruluşunu bərqərar etmək, geniş sosial islahatlar həyata keçirmək, ölkəni müdafiə edə biləcək güclü ordu yaratmaq. Cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti özünün həyatiliyini və yüksək işgüzarlıq qabiliyyətini sübut etdi. Göstərdi ki, Azərbaycan xalqı, həqiqətən, parlament idarəçiliyi səviyyəsinə yüksəlmişdir. O vaxt Azərbaycan Cümhuriyyəti müsəlman Şərqində yeganə parlamentli respublika idi.

Bu dövr ərzində Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 145 iclası keçirilib. İlk iclas 1918-ci il dekabrın 7-də, son iclas isə 1920-ci il aprelin 27-də olub. Fəaliyyət müddətində Azərbaycan Cümhuriyyəti Parlamentinin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılıb ki, onlardan da 230-a yaxını təsdiq edilib. Bilirsiniz ki, Milli Məclisdə Azərbaycan parlamentinin 90 illiyi təntənəli şəkildə qeyd olundu. Bu il isə Azərbaycan Parlamentin 100 illiyi də yüksək səviyyədə qeyd olunacaq.

***- Fəzail müəllim, Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edib. Bu qərarın əhəmiyyəti nədən ibarətdir?***

- Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi bir sıra səciyyəvi cəhətləri özündə birləşdirir. Əvvəla, hər yeni ilin müəyyən bir sahə, amil üzərində köklənməsi, onun adı ilə bağlı elan olunması artıq ənənə halını alıb. 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi də bu ənənənin davamıdır. Xatırladım ki, 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli" elan edilməsi xalqımızın və dövlətimizin dünyəvi dəyərlərə sadiqliyinin, eləcə də dünyada sivilizasiyalararası dialoqun gücləndirilməsinə bir çağırış idi. Həmçinin, 2017-ci ilin "İslam həmrəyliyi İli" elan olunması da böyük əhəmiyyət kəsb edirdi. Bu qərar Azərbaycanın bütün dünyada İslam həmrəyliyinə, müsəlman dövlətləri arasında əməkdaşlığın güclənməsinə xidmət etdi. Ötən ilin sonunda bununla bağlı möhtəşəm bir tədbir keçirildi ki, bu da "İslam həmrəyliyi İli"nin həm dini, həm dünyəvi xarakter daşıdığını nümayiş etdirdi.

Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması isə milli-mənəvi dəyərlərimizə, tariximizə, keçmişimizə və bu günümüzə olan münasibətdir. Ötən əsrin əvvəlində dəyərli ziyalılarımız yaranmış tarixi şansdan istifadə edərək Azərbaycanın müstəqilliyini elan etdilər və dövlətin atributları, sərhədləri, paytaxtı və vacib amillər müəyyənləşdirildi. Bu fakt millətimizin varlığını sübut edən amil idi. Xalq Cümhuriyyəti 23 ay ərzində böyük tarixə imza atdı. Əgər o zaman cümhuriyyət yaradılmasaydı, bu gün vəziyyət başqa cür ola bilərdi. AXC sovet-bolşevik imperiyası tərəfindən işğal olundu. İşğal 70 il sürsə də, bu, xalqımızın qəlbində müstəqillik ruhunun yaşamasına mane ola bilmədi. Bunun nəticəsi olaraq ötən əsrin sonunda dövlət müstəqilliyimiz bərpa olundu. Bu gün Azərbaycan güclü, dünyada söz sahibi olan dövlətdir. Müstəqil dövlətimiz elə qlobal layihələrin müəllifidir ki, bütün dünya Azərbaycanın önəmini etirfa etməyə məcburdur. Bütün bunların bünövrəsi isə Azərbaycan Xalq Cümhuriyyəti dövründə qurulub. Prezident İlham Əliyevin bu qərarı Xalq Cümhuriyyətinə və onun qurucularına verilən yüksək dəyərdir. Cümhuriyyətin qurucuları olan insanların mütləq əksəriyyəti vətən, millət yolunda şəhid oldular. Bu qərar həm, cümhuriyyət uğrunda şəhid olanların, həm də müasir müstəqil dövlətimizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin ruhuna böyük ehtiramdır. Ona görə də, bu gün ölkəmizdə siyasi mövqeyindən, əqidəsindən asılı olmayaraq hər kəs bu qərarı yüksək qiymətləndirir.

***- Xalq Cümhuriyyətinin tarixinin araşdırılması hansı səviyyədədir? Bu qərar tarixçilərin üzərinə hansı vəzifələr qoyur?***

- Azərbaycan tarixinin ən çox araşdırılan dövrlərindən biri məhz Xalq Cümhuriyyəti ilə bağlıdır. AMEA-nın Tarix İnstitutu bununla əlaqədar bir neçə cildlik əsərlər nəşr edib. Eyni zamanda bu dövrlə bağlı xeyli sayda doktorluq, namizədlik işi müdafiə olunub, həmçinin sanballı monoqrafiyalar yazılıb. O dövr o qədər mürrəkəb, gərgin idi ki, onun hər günü üçün böyük elmi araşdırmalar aparıla bilər. O cümlədən Xalq Cümhuriyyəti parlamentinin fəaliyyəti, qəbul etdiyi qanunlar da ciddi elmi araşdırmalar mövzusudur.

Sovetlər hakimiyyəti dövründə Xalq Cümhuriyyətinin tarixi qapanmış səhifə idi. Tarix kitablarında cümhuriyyətin adı çəkilmirdi, yalnız bəzi mənbələrdə "Müsavat hökuməti"nin adı çəkilib. Amma 1990-cı ildən sonra bu səhifələr açılmağa başladı. Cümhuriyyət dövründə Xasməmmədovun rəhbərlik etdiyi komissiyanın azərbaycanlıların soyqırımı ilə bağlı apardığı təhqiqat sənədləri bugünümüz üçün çox aktualdır. Biz ermənilərin xalqımıza qarşı törətdiyi soyqırımı ilə bağlı bu sənəddən ən böyük mənbə kimi istifadə edirik.

Xalq Cümhuriyyəti cəmi 23 il yaşasa da, onun tarixi tükənməzdir, bundan sonra da uzun illər öyrəniləsi bir tarixdir. Hesab edirəm ki, Prezident İlham Əliyevin məlum qərarı isə bu baxımdan tarixçilərimizə əlavə stimul verəcək.

## "AXC ili"nin elan olunması tarixi əhəmiyyətə malikdir"

***"2018-ci ilin Prezident İlham Əliyev tərəfindən ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması çox böyük tarixi əhəmiyyətə malik bir qərardır". Bunu SİA-ya açıqlamasında Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Sahibə Qafarova deyib.***



Ötən əsrin əvvəllərində müsəlman şərqində ilk demokratik respublikanın məhz Azərbaycan xalqı tərəfindən yaradıldığını xatırladan millət vəkilinin sözlərinə görə, Azərbaycan xalqı haqlı olaraq öz tarixi ilə fəxr edir: "Həmin dövrdə cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti çox tarixi bir missiyanı yerinə yetirdi, o dövrdə hətta bir sıra Qərb dövlətlərindən də əvvəl demokratik islahatlar həyata keçirdi. Azərbaycan Xalq Cümhuriyyəti qadınlara seçib-seçilmək hüququ verərək bu məsələdə də bir çox dövlətlərə öncüllük etdi".

2018-ci il ərzində "Azərbaycan Xalq Cümhuriyyəti İli" çərçivəsində mühüm tədbirlərin keçiriləcəyini deyən millət vəkili S.Qafarova bildirib ki, bu tədbirlər Azərbaycanın dövlətçilik tarixinin, xalqımızın ənənələrinin öyrənilməsi və təbliğ olunmasına, o cümlədən gənc nəslin dövlətçilik şüurunun möhkəmlənməsinə, vətənpərvərlik ruhunda tərbiyə olunması işinə töhfə verəcək. Sahibə Qafarova deyib ki, Ulu Öndər Heydər Əliyev Xalq Cümhuriyyətinin fəaliyyətini daim yüksək qiymətləndirərək bəyan edib ki, müasir müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. "Xatırlatmaq istərdim ki, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı da ilk dəfə məhz Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən rəsmi olaraq qəbul edilib. Həmçinin, Cümhuriyyətinin 80 illiyinin dövlət tərəfindən yüksək səviyyədə qeyd olunması ilə bağlı Ümummilli liderin sərəncamları çox mühüm tarixi əhəmiyyətə malik idi. Hazırda isə Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətin tarixi əhəmiyyətinə, fəaliyyətinə çox yüksək qiymət verir. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqı yüksək qiymətləndirir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin demokratik ənənələrinə sadiq olduğunu və bu ənənələri uğurla yaşatdığını, demokratik inkişaf yolunda əmin addımlarla irəlilədiyini sübut edib", - deyə Sahibə Qafarova qey edib.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
12 yanvar 2018-ci il



# Putinin prezident seçilmək şansı - hər şey dəyişə bilər...

## *Yaxud Finlandiya mətbuatı niyə həyəcan təbili çalır?*

***Xarici mətbuat Rusiyanın dövlət başçısı Vladimir Putinin növbəti dəfə prezident seçkilərinə qatılması barədə verdiyi qərarı ətrafında çoxsaylı yazı və məqalələrlə çıxış etməyə başlayıblar. Xüsusilə, Qərb mediası bu Şimal ölkəsinin dünyada baş verən proseslərə özünəməxsus yanaşmalarını sərt tonda tənqid atəşinə tutur və görünən budur ki, hazırda Putin administrasiyası ciddi hücumların qarşısını almaq məcburiyyətindədir. Nəzərə alsaq ki, Rusiya istər Yaxın Şərq regionunda, istərsə də Qərbə münasibətində siyasi mövqeyini uzun illərdir ki, dəyişmir, hətta qoca qitəyə qarşı soyuq müharibə fonunda addımlarını artırır və bu mövqe, bütövlükdə, dünyanın siyasi mühitinə öz təsirlərini göstərir, bu zaman ehtimal etmək olar ki, seçkilər öncəsi Rusiya-Qərb münasibətləri daha da sərtləşəcək. Buna isə, daha bir səbəb var. Məsələ həm də ondadır ki, artıq bir neçə ildir Putinin yeni SSRİ qurmaq planı barədə müxtəlif və çoxsaylı fikirlər səsləndirilir. Düzdür, Rusiyanın rəsmi dairələri belə bir planın, ümumiyyətlə, olmadığını bildirsələr də, ancaq hadisələrin buna doğru inkişafı bəzi hallarda inandırıcı görünür.***




Bu arada, Finlandiya mətbuatı Rusiyadakı siyasi-ictimai mühit və seçkilərə hazırlıqla bağlı geniş yazılar dərc etməkdədir. Əgər nəzərə alsaq ki, Rusiya Finlandiya ilə sərhədlərə malikdir, həmçinin, Rusiyanın Finlandiya ilə yanaşı, İsveç və Baltikyanı ölkələrlə bağlı müəyyən olunmuş özəl siyasəti mövcuddur, bu zaman Finlandiya mətbuatının hadisələrin inkişafı istiqamətindəki baxışları və münasibətləri maraq doğurmaya bilməz. Misal üçün, Finlandiyanın aparıcı KİV-lərindən sayılan "Yle" Teleradio şirkətinin müxbiri Çerstin Krunvall Vladimir Putinin növbəti dəfə prezidentlik müddətinə namizədliyini irəli sürməsi ətrafında reportaj hazırlayıb və həmin reportajda qeyd olunur ki, Rusiyada prezident seçkiləri ilə bağlı qəti proqnozlar vermək mümkün deyil, ancaq o, həmçinin, bildirib: "Putin nəhəng miqyaslı dəstək olmadan növbəti seçkilərə qatılmaq istəmir, çünki belə olan halda, tənqidçilər bəyan edə bilərlər ki, onu ölkəsinin çox cüzi vətəndaşları dəstəkləyib".

### "Helsingin Sanomat" qəzeti: "Putin seçkiöncəsi kampaniyalara nifrət edir"

Finlandiyanın nüfuzlu "Helsingin Sanomat" qəzetinin jurnalisti Pekka Hakaala isə, öz şərh xarakterli məqaləsində yazıb ki, Putin, prezidentliyinin dördüncü müddətində Rusiyanı bağlı və astagəl ölkəyə çevirərək, bu amili dövlətçilik monopoliyasına daxil edib və bütün bunlara rəğmən, ölkəsini ağır iqtisadi böhrandan çıxarmağa nail olub. "Putin seçkiöncəsi kampaniyalara nifrət edir"-deyə Pekka Hakaala daha sonra qeyd edib və əlavə edib ki, Rusiya prezidenti heç vaxt ölkə vətəndaşlarına planları barədə danışmır, çünki o, daha çox qətiyyətli qərarları ilə addımlar atmağa üstünlük verir.

Yenə də "Yle" teleradio şirkətinin digər əməkdaşı, Finlandiya KİV-in Rusiyadakı müxbiri Maryo Nyakki isə yazır ki, Putinin idarəçiliyi dövründə bu ölkədə vətənpərvər və patriotçuluq təlim-tərbiyəsi yönündə gənclik yetişir, hətta bu faktor populyarlıq qazanır. Finlandiyalı jurnalist öz oxucularına Velikiy Ustyuq böllgəsində "Vımpel" hərbi-patriotçuluq klubu barədə məlumat verərək qeyd edir ki, hazırda Rusiyada daha çox danışılan mövzulardan biri də SSRİ-nin Böyük Vətən müharibəsində əldə etdiyi qələbəsidir. "Ancaq nədənsə, Stalinin rolu və SSRİ-də mövcud olan məhbus düşərgələri barədə heç nə danışılmır"-deyə Maryo Nyakki yazır.

### "Ilta-Sanmat" nəşri: "Hər kəs növbəti dəfə Putin siyasətinin təsir gücünü gördü"

"Ilta-Sanmat" qəzetinin jurnalisti Yuhanna Nurdlinq isə digər bir məsələyə - Beynəlxalq Olimpiya Komitəsinin Rusiya idmançılarını 2018-ci ildə keçiriləcək Olimpiya Oyunlarına neytral bayraq altında qatılması məsələsinə toxunub. "İl yenidir, günahlar isə köhnə" adlı məqaləsində fikir bildirən finlandiyalı jurnalist bu məsələdə BOK-u günahlandırır və Rusiyaya loyal münasibət sərgilədiyini yazır. Maraqlıdır ki, o da öz fikirlərini Putin siyasəti üzərinə gətirir. SİTAT: "BOK öz qərarını "əxlaqi naliliyyət" adlandırır, halbuki əslində, söhbət şəxsi məğlubiyyətin etirafından gedir. Hər kəs növbəti dəfə Putin siyasətinin təsir gücünü gördü".

Beləliklə, Nurdlinq sonda qeyd edir ki, Rusiya bu minvalla öz sistemini dəyişməyəcək, çünki layiq olduğu cəzasını almır.

### Finlandiya prezidentliyinə ultramillətçi namizəd Laura Xuxtasaari hesab edir ki, Rusiya Finlandiyaya potensial təhlükədir və...

Adıçəkilən qəzet digər materialında Rusiyanın Finlandiya ilə elə də isti olmayan münasibətlərinə toxunaraq, Finlandiyanın NATO-ya üzv olmasının vacibliyindən yazıb. Məsələn, Finlandiyada keçiriləcək prezident seçkilərinə namizədliyini ultramillətçi "Əsl finlər" partiyasından irəli sürmüş Laura Xuxtasaari, hesab edir ki, Rusiya Finlandiyaya potensial təhlükədir və bununla yanaşı, vurğulayıb ki, qonşu ölkə davamlı olaraq, hərbi təlimlər keçirərək, nəyəsə hazırlaşır. Fin namizədə görə, Rusiya NATO-nun genişlənməsinə mütləq reaksiya verəcək və buna görə də, Finlandiyanın alyansa daxil olmamalıdır.

Finlandiyanın prezidentliyinə digər namizəd - mərkəzçi Matti Vanxanen isə "Yle"yə mövzu ilə bağlı verdiyi açıqlamasında, hesab edib ki, Finlandiyanın NATO-ya qoşulması beynəlxalq sabitlik fonunda neqativ hadisələrlə müşahidə oluna bilər və bu addımı Rusiyanın Ukraynadakı fəaliyyəti ilə eyniləşdirmək olar. Vanxanen Rusiyanın Finlandiyaya yönəldilmiş siyasi baxışlarının uğurlu olmadığını desə də, maraqlıdır ki, iki ölkə arasındakı ümumi münasibətlərin normal olduğunu da istisna etməyib.

"Iltalehti" nəşri isə Rusiya müxalifətinin hakimiyyət tərəfindən sıxışdırılması mövzusuna toxunub və bunun arxasında, bilavasitə Putin siyasətinin dayandığını yazıb. Misal üçün, adıçəkilən nəşrə açıqlama verən və İrkutsk şəhərindən olan rusiyalı müxalifətçi fəal İqor Martınenko iddia edib ki, hakimiyyətə qarşı çıxan fəallar çox çətin vəziyyətdədirlər və Rusiyada insan haqları pozulur. "İrkutsklu fəal İqor Martınenko nəşrimizə bildirir ki, ölkədə din mövzusu daha çox qabardılır və bu, siyasət aləti olaraq istifadə olunur, fəallarla çox sərt davranılır, onların həbs olunması üçün isə çox sadə bəhanələr tapılır"-deyə nəşr yazır.

### Latviya, Litva, Estoniya, Polşa, Norveç, Finlandiya və İsveç əsas hədəfdədir?

Beləliklə, Fin mətbuatının özəlliklə Rusiyada baş verən proseslərə bu qədər maraq göstərməsi əbəs deyil. Çünki Rusiyanın istər Skandinaviya, istərsə də Baltikyanı ölkələrə qarşı təhdidli siyasət nümayiş etdirməsi hər an baş qaldıra bilər. Misal üçün, bu yaxınlarda Almaniyanın "Bild" qəzeti Rusiyanın ötən ilin sentyabr ayında həyata keçirdiyi "Zapad-2017" təlimində terrorla mübarizədən çox, NATO və Avropaya qarşı hücum planını icra etdiyini irəli sürmüşdü.

Qəzet Qərb kəşfiyyat mənbələrinə əsaslandırdığı xəbərində, Rusiyanın 100 min əsgərlə keçirdiyi təlimin adının rəsmi "terrorizmə qarşı mübarizə" olduğunu, ancaq daha çox NATO və Avropa ölkələrinə qarşı müharibə planı hazırladığını yazmışdı.

Təlimin ssenarisinə görə, bir neçə gün ərzində Baltik ölkələrinin alınması məqsədi hədəf alınmışdı. Məhz bundan sonra ABŞ NATO çərçivəsində müəyyən hərbi silahlı qruplar, o cümlədən, hərbi avadanlıqlarını regiona göndərmişdi. O cümlədən, bu gün NATO-nun hərbi-plan masasında Rusiyanın Latviya, Litva, Estoniya, Polşa, Norveç, Finlandiya və İsveçə hücum etməsi mümkünlüyünü əks etdirən, eləcə də, müharibəyə kifayət qədər yaxın olan ehtimalları mövcuddur. Görünür, bu məsələdə daha çox ehtiyat edən də, məhz Finlandiyadır. Hər halda, Rusiyada bu il keçiriləcək prezident seçkiləri və Putinin seçilmək şansının yüksək səviyyədə olması istər Qərbi, istərsə də, Qərbə bağlı olan ölkələri ciddi şəkildə narahat etməyə bilməz.

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycan tərəfi görüş naminə görüşə getməyəcək

## *Arzu Nağıyev: "Azərbaycan-Ermənistan xarici işlər nazirlərinin görüşməsi müsbət bir hal kimi dəyərləndirilə bilər"*

***- Arzu müəllim, ATƏT-in Minsk Qrupunun amerikalı həmsədrinin iddiasına görə, bu ayın sonuna qədər nəzərdə tutulan Azərbaycan-Ermənistan xarici işlər nazirlərinin görüşündə Dağlıq Qarabağ münaqişəsinin həllində irəliyə doğru prinsipial addım atıla bilər. Bu fikirləri nə dərəcədə real hesab etmək olar?***

- Ümumiyyətlə, Azərbaycan-Ermənistan xarici işlər nazirlərinin görüşməsi müsbət bir hal kimi dəyərləndirilə bilər. Bu görüş münaqişənin həllində bir sıra detalların yenidən araşdırılmasında rol oynaya bilər. Amerikalı həmsədrin belə nikbin bəyanat verməsini də başa düşmək olar. Çünki hazırda münaqişənin həll edilməsində əsas açar fiqur kimi Rusiya daha çox hallanır və bu il də Rusiyada seçkilər ilidir. Yəni bir humanist addım kimi və ya Rusiya hakimiyyətinin sülhməramlı dövlət imicini yaratması üçün Ermənistana təzyiqini istisna etmək olmaz. Eyni zamanda, ABŞ da öz tərəfindən belə bir prosesin baş verməsinə çalışır. Yəni nüfuz savaşı davam edir. Ancaq bunun reallaşması çox çətin bir prosesdir. Eyni zamanda, münaqişənin həlli tək nazirlər səviyyəsində həll edilə bilməz.

***- Xarici işlər nazirlərinin görüşündən sonra prezidentlərin görüşünə ümid bəsləmək olarmı?***



**Müsahibimiz politoloq Arzu Nağıyevdir**

- Azərbaycan-Ermənistan xarici işlər nazirlərinin görüşündə hər hansı müsbət dinamika alınsa və ya nəticə əldə edilsə, prezidentlərin görüşünə ümid bəsləmək olar. Təbii ki, Azərbaycan tərəfi görüş naminə görüşə getməyəcək. Çünki bu gün biz diktə edən tərəfik və bütün beynəlxalq normalara uyğun olaraq, BMT-nin qətnamələri, Sankt-Peterburq, Kazan və Vyana danışıqlarının şərtləri də daxil olmaqla, hətta ərazi bütövlüyü çərçivəsində hər bir millətin öz müqəddəratının həlli, ən yüksək muxtariyyət verilmə şərtlərini də bəyan etmişik. Ermənistan tərəfi isə, bu şərtlərlə razılaşmayaraq, status-kvonu saxlayır və bunula da, Sarkisyan öz hakimiyyətini uzadır. Məhz buna görə də, dövlət başçıları səviyyəsində görüşlərin nəticəsinə ümid azdır.

***- Nə zamansa, qeyri-konstruktiv mövqe ilə seçilən Sarkisyan Dağlıq Qarabağ münaqişəsinin həllində konstruktiv mövqe ortaya qoya bilərmi?***

- Sarkisyan rejimi belə asanlıqla Dağlıq Qarabağ münaqişəsinin həllində konstruktiv mövqe ortaya qoya bilməz. Çünki bunlar müstəqil dövlət deyillər. Əgər Rusiya və digər dövlətlər təsir etməsə, onlar sülhə getməyəcəklər. Bundan başqa, bu il həm Rusiyada, həm də Ermənistanda seçkilər ilidir. Ermənistan separatçılara verdiyi "müstəqillik" vədini yerinə yetirə bilmir və bilməyəcək də, buna görə də siyasi gedişlər edəcəkdir, Rusiya da çalışacaq ki, ona loyal olan Sarkisyan rejimini saxlasın. Yəni seçkilərdə "Qarabağ kartı" bu klanın əsas məqsəd və məramını həyata keçirən məfhumdur. Təbii ki, qərbyönümlülər də, rusiyapərəstlər də öz rolunu oynayırlar. Lakin hakimiyyətdə qalmaq və status-kvonu saxlamaq bu klanın əsas silahıdır. Məhz buna görə də, Azərbaycanın daxili və xarici siyasətində ən prioritet istiqamət olan Dağlıq Qarabağ məsələsinin həlli üçün hərbi yol da istisna edilmir. Bunu beynəlxalq qurumlar dərk etməlidirlər və Ermənistana təzyiq mexanizmini işə salmalıdırlar. Bu, sanksiyalar və digər təzyiq tədbirləri də ola bilər.

**GÜLYANƏ**

# Satqın müxalifət məhvə məhkumdur

***Dağıdıcı müxalif ünsürlər 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkiləri ilə əlaqədar fəallıq göstərməyə çalışırlar. Daha doğrusu, onları ölü nöqtədən dartıb çıxarmğa cəhd edirlər. Ancaq bu real faktdır ki, Azərbaycan müxalifəti müstəqil fəaliyyət göstərmək gücünə malik deyil.***

Bunun da səbəbi onların ictimaiyyət tərəfindən dəstəklərinin olmamasıdır. Cəmiyyətin birmənalı mövqeyi ondan ibarətdir ki, dağıdıcı müxalifət milli və dövlətçilik maraqlarına qarşı qərəzli mövqe nümayiş etdirir. Bəzən xarici qüvvələrin maddi və mənəvi dəstəyinə arxalanaraq, ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa və qarşıdurmalar yaratmağa cəhd göstərirlər. Təbii ki, bu da ictimai rəydə müxalifətə qarşı narazılıqlar yaradır. Ən pisi isə, insanlar müxalifətin başbilənləri hesab olunan İ.Qəmbərə, A.Hacılıya, Ə.Kərimliyə və digərlərinə nifrət bəsləyirlər. Bunu müxalifət liderlərinin özləri də dərk edir və başa düşürlər. Ona görə də, çıxış yolunu xarici qüvvələrlə əməkdaşlıq münasibətlərini genişləndirməkdə görürlər.

### Yolunu azan müxalif ünsürlər cəzasız qala bilməz

Faktlara istinadən demək olar ki, müxalifətin üzdə olan partiya funksionerləri birbaşa və ya dolayısı ilə xarici fondlara və təşkilatlara bağlı insanlardır. Qarşılıqlı əlaqələr fonunda ortada milli maraqların zərbə altına qoyulmasıdır. Dəfələrlə müxalifətin müəyyən ünsürlərinin "SOROS", "Stevan Çldrın", "Vestern Marşal" təşkilatları ilə əlaqələrinin olması sübuta yetirilib. Misal kimi, müsavatçı Əfqan Muxtarlının, eləcə də, AXCP sədr müavini Gözəl Bayramlının sözügedən təşkilatların ayırdıqları maliyyə vəsaitini Gürcüstandan Azərbaycana qaçaqmalçılıq yolu ilə keçirməyə cəhd edən zaman həbs olunmamalarını göstərmək olar.

Bir sözlə, fakt budur ki, dağıdıcı müxalif ünsürlər geniş və əhatəli əməkdaşlıq münasibətlərinə malikdirlər. İsti münasibətlər isə birtərəfli deyil. Hər iki tərəf eyni maraqları bölüşməyə çalışırlar. Yəni xarici məkrli qüvvələr pul verirlərsə, yerli dağıdıcı ünsürlər də, qarşılığında tapşırıqlara uyğun olaraq, pozuculuq aktları törətməyə cəhdlər göstərirlər. Bunun üçün əsas deyil ki, hansı vasitə və üsuldan istifadə edilsin. Görünən o olmalıdır ki, sabitliyə xələl gələ biləcək ab-hava müşahidə olunsun. AXCP-Müsavat funksionerləri də ölkədə yaradılmış demokratik ab-havadan istifadə edərək, mövcud ictimai-siyasi sabitliyi pozmağa və bununla da xaricdən verilən sifarişləri yerinə yetirməyə səylər göstərirlər. Təbii ki, xaos və iğtişaşlar olan yerdə demokratiya ola bilməz. Bu sadə məntiqi dağıdıcı müxalifət dərk etmir və ya dərk etmək istəmir.

### Müsavatın növbəti qurultayına qədər İsa Qəmbər siyasətdən gedə bilər

Xarici anti-Azərbaycan dairələrin çirkli pullarına şirniklənən dağıdıcı müxalifət funksionerləri ölkəmizi ötən əsrin 90-cı illərinin anarxiya və xaos dövrünə sürükləməyə çalışırlar. Bu baxımdan, onların hərəkətləri müxalifətçilikdən çox-çox uzaqdır. ASDP sədri Araz Əlizadə əlləri xarici məkrli qüvvələrin cibində olan dağıdıcı müxalifətin satqın olduğunu və belə mövqe tutanların yanında kiminsə qala biləcəyinin inandırıcı olmadığını söyləyib: "Satqınlıq və xəyanət yolu tutanlara kimsə, o cümlədən, yerli və xarici qüvvələr dəstək verməz. Himayədarlıq yalnız müvəqqəti xarakter daşıya bilər. Sonra isə, yollar ayrılacaq. İndiki müxalifət təmsilçiləri bu reallığı dərk etməlidir".

Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev Müsavatın bəd niyyətinin iflası fonunda partiyanın da dağılmasının başlıca günahkarının A.Hacılı və İ.Qəmbər olduğunu bildirib: "İ.Qəmbər elə bir adamdır ki, zamanında öz lideri Elçibəyə güzəşt etməyib. Öz böyüyünə qarşı çıxıb. Ona görə də, indiki məqamda öz etdiklərinin acı bəhrəsini görür. Müsavatın dağılması ilə İ.Qəmbərin də siyasətdə sonu olacaq".

Təhlillərə və rəylərə, eləcə də, ekspertlərin fikirlərinə əsasən, demək olar ki, dağıdıcı müxalifətin çirkin, yaramaz siyasətini dəyişməsi mümkün deyil. Belə müxalifət, haqlı olaraq, ictimai nifrətə və ittihama layiqdir.

**İ.ƏLİYEV**



**Təhmasib Novruzov**

# Çalxalanan dünya

**Allah Mirzə Ələkbər Sabirə rəhmət eləsin. Rəhmətliyin hər kəlməsi bütün zamanlar üçün aktualdı. Bir beytini də indi xatırlatmaq istəyirəm.**

**Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,**
**Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur.**

Hərdən düşünürsən ki, bu dünya çalxalandıqca, hər dəfəsində niyə Amerikanın adı önə çıxır? Məsələn, dünya Vyetnamda çalxalandı, Amerika başda, Əfqanıstanda çalxalandı, Amerika başda, İraqda, Liviyada, Sudanda, Suriyada, Misirdə... Bir sözlə, harda çalxalanma olursa, nədənsə Amerika üzə çıxır. Belə çıxır ki, Amerika bu dünyanın yağıdı, dünya çalxalanan kimi üzə çıxır? Əvvəllər mən də belə düşünürdüm. Amma yaşlandıqca, dünyada baş verənləri izləyib, təhlil etdikcə, anlamağa başladım ki, yox atam, Amerika yağ deyil, heç pendir də deyil, sadəcə, dünya adlanan bu "nehrə"ni yırğalayandı. Yırğalayır-yırğalayır, sonra da üzünün yağını sıyırıb aparır okeanın o tayına. Utanmaz-utanmaz bu yırğalanmanın da adını qoyur demokratiya! Sən demə, bu demokratiya deyilən zad dünyadakı millətləri əzib, əllərində olanı almaq, sonra da demokratiya ixracı pərdəsi ilə üstünü örtməkdən ötəri ortalığa atılmış bir siyasi oyun imiş. İş o yerə çatıb ki, Fələstinin dədə-baba torpağında özünə dövlət quran İsrail, bu millətin qədim şəhərini - Qüdsü özünə paytaxt eləmək istəyir, "haqq-ədalət və insan hüquqları müdafiəçisi" adlanan bu ölkə (yəni Amerika Birləşmiş Ştatları) önə çıxır və bu şəhəri İsrailin paytaxtı kimi tanıdığını bildirir. Bax, bu yerdə "lənət olsun belə ədalətə də, belə demokratiyaya da" deməmək olmur. Maraqlısı da budur ki, Amerika deyilən bu reketlər başçısı bütün gücünü də müsəlman ölkələrinin üstünə səpələyir. Niyə? Aydın məsələdi, müsəlmanlarda birlik yoxdur və ya birliyin olmasına imkan verilmir, "parçala, hökm et" prinsipi ilə bu ölkələri çalxalayır, yağını aparır, ayranını da saxlayır özlərinə. İslam qanunlarına görə, dünyanın o başında bir müsəlman dara düşübsə, imkanı olub, ona kömək etməyən müsəlman günah etmiş olur. Yəni bunu islam peyğəmbəri belə buyurub. Amma indi qonşusundakı müsəlmanın yurdun-yuvasını dağıdırlar, o biri müsəlmanlar da bunu seyr edirlər, bəzən hətta buna haqq qazandırırlar. Vallah, bu necə müsəlmançılıqdı, anlamıram, anladığım tək odur ki, belə müsəlman olmaqdansa, dinsiz olmaq daha faydalıdır. XVIII əsrdə Osmanlı imperiyasını dağıtmaq üçün ingilislər mister Himfer kimi tanınan bir casusu saldı müsəlmanların içinə, təriqətlərarası ədavətdən yararlanıb, müsəlmanları saldılar bir-birinin üstünə. Yetməz kimi hələ özləri təptəzə bir təriqət də icad elədilər və ədavəti bir az da dərinləşdirdilər. XIX əsrdə ermənilərdən, XX əsrdə PKK-çı kürdlərdən, indi də bəzi-bəzi "müxalifət" qruplarından çox bacarıqla istifadə edir bu zatlar. Hamısını da öyrənəndə, baxıb görürsən ki, bu zatlar da elə fitvanı Amerikadan alırmışlar. Sual olunur: balam, bu fağır müsəlmanlar neyləyib axı sizə? Vallah, mən Məşədi İbaddan fərqli olaraq "Tarixi-Nadir"i də, Atillanı da, Makedoniyalı İskəndəri də, Əmir Teymuru da, Osman qazini də, Şah İsmayıl Xətaini də tamam-dəsgah oxumuşam. Amma fateh adlanan bu zatların heç biri indiki reket dövlətlərin ikiüzlü və nakişi əməllərini törətməyiblər. Nəysə, bu barədə ha danışsaq da yetməz. Gərəkdir ki, sözümü tamamlayam. Mənim azçox həyat təcrübəm və dünyada baş verənləri təhlil etmək bacarığım var. Təhlil edib də gəldiyim nəticə ondan ibarətdir ki, bu Amerika bəzi özü kimi reket dövlətləri də başına yığıb, ona görə müsəlmanlara qənim kəsilib ki, həm onların yeraltı-yerüstü sərvətlərini əlindən alıb özlərindən asılı vəziyyətə salsınlar, həm də dünyada xristianların sayının azalması müqabilində müsəlmanların sayının sürətlə artmasının qarşısını alsınlar. Axı bu zatlar son vaxtlar eynicinslilərlə evlənməyi dəb salıblar! Belə olan təqdirdə, insan necə arta bilər? Bax, deyəsən, elə məsələnin kökündə dayanan da budur...

Allah bəzi-bəzi müsəlmanlara ağıl əta eləsin...AMİN!

# "Müxalifətin ləkəli siyasi imici var"

## Təhmasib Novruzov: "Müxalifətin ləkəli siyasi imici onların cüzi uğur qazanmalarına belə imkan vermir"

***- Təhmasib bəy, müxalifət liderləri 2018 - ci ildə fəal olmaqla siyasi gündəmə yeniliklər gətirməyə çalışacaqlarını bildirirlər. Sizcə, onlar xəyallarında qurduqlarını reallığa çevirə bilərlərmi?***

- Dağıdıcı müxalif ünsürlər siyasi fəaliyyətdə olduqları illər ərzində, hər hansı uğurları olmadığı kimi, bundan sonrada cüzi nailiyyətləri belə olmayacaq. Bu gün müxalifətin hansısa bir məsələdə uğur qazanması mümkün məsələ deyil. Çünki onların xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. İ.Qəmbər, Ə.Kərimli, A.Hacılı və digər dağıdıcı ünsürlər ümidlərini xaricdə olan ağalarına bağlayıblar ki, bundan sonra nə isə ola bilər. Amma müxalifətin ümidlərini hara və hansı xarici dairələrə bağlamasından asılı olmayaraq, onların gələcək illərdə hər hansı bir məsələdə uğur qazanmaq şansları sıfıra bərabərdir.

***- Dağıdıcı müxalif partiya sədrləri gündəmdə qalmaq üçün daha çox populist ideyalarla çıxış edirlər. Sizcə, bu vasitələrdən istifadə etməklə gündəmdə qalmaq olarmı?***

- Artıq demək olar ki, İ.Qəmbər, Ə.Kərimli və digər özünü müxalifət adlandıran qüvvələrin bu cür bəyanatlarını çox eşitmişik. Bu gün də təkrarən partiya sədrləri yersiz əməllərini davam etdirirlər. Bu il keçiriləcək prezident seçkilərinə müxalifəti təmsil edən qüvvələrin özləri də ümidsizdilər. Çünki müxalifətçilər əmindirlər ki, Prezident İlham Əliyevə alternativ olmaq mümkün deyil. Müxalifətin ləkəli siyasi imici onlara cüzi uğur qazanmalarına imkan vermir. Bu baxımdan, müxalifətin bu cür hay-küyünün bir mənası var o da xaricdə olan ağalarını aldatmaq və onları inandırmaq ki, guya bunlar da nə isə edirlər. Yəni müxalifətçilər düşünürlər ki, həmin xarici qüvvələrdən özlərinə nə isə qoparda bilərlər.



Müsahibimiz "Azadlıq Hərəkatçıları Birliyinin" sədri Təhmasib Novruzovdur

***- "Vahid namizəd"in müəyyənləşdirilməsi ilə bağlı müxalifət düşərgəsində ciddi qarşıdurmalar yaranıb. Sizcə, bu cür gərgin vəziyyət partiyalardan növbəti qopmalara gətirib çıxaracaqmı?***

- Bu, həmişə gördüyümüz və bildiyimiz məsələlərdir. Yəni C.Həsənli, Ə.Kərimli, A.Hacılı və İ.Qəmbər arasında prezident seçkilərində iştirak etmək üçün "vahid namizəd" uğrunda mübarizə hər zaman olub. Ümumiyyətlə, bu gün müxalifət daxilində birincilik uğrunda kəskin mübarizə gedir. Hətta bu mübarizədə qalib gəlsinlər deyə, onlar hər şeyə əl atarlar. Bu baxımdan, demək olar ki, dağıdıcı müxalif ünsürləri ancaq şəxsi mənafeləri maraqlandırır. Yəni onlar üçün partiya daxilində olan problemlər maraqlı deyil. Bu kimi acınacaqlı hallardır ki, müxalifəti dağılmağa məhkum edib.

***- Münasibətlərin kəskinləşməsi ilə yeni qarşıdurmaların əsası qoyula bilərmi?***

- Dağıdıcı müxalifət liderlərinin bu cür anormal hərəkətlərə əl atmaları müxalifət daxilindən yeni-yeni qarşıdurmaların, bundan da kəskin davadalaşların olması ilə nəticələnəcəkdir. Onsuz da hər zaman müxalifət daxilində qarşıdurmalar olub və bundan sonra da olacaqdır. Çünki müxalifət düşərgəsində bir-biri ilə yola getmək və biridigərini yola vermək kimi məsələlər yoxdur. Ümumiyyətlə, bu gün müxalifətdəkilər üzdə yalandan bir-birinin üzünə gülürlər, amma arxada isə birbirilərindən zəhlələri gedir. Bütün bunların kökündə də müxalifət partiya sədrlərinin şəxsi ambisiyaları dayanır.

**GÜLYANƏ**

## Soyğunçuluq edən keçmiş məhkum narkotiklə yaxalandı

Yanvarın 10-da Yasamal Rayon Polis İdarəsinin 29-cu Polis Bölməsinə müraciət edən Bakı şəhər sakini olan bir qadın naməlum şəxsin onun mobil telefonunu açıq talama yolu ilə almasını bildirib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə soyğunçuluğu törətməkdə şübhəli bilinən şəxs qısa vaxtda müəyyən edilərək saxlanılıb. Araşdırmalarla onun paytaxt sakini, əvvəllər məhkum olunmuş Zöhrab Əmiraslanov olması müəyyən edilib. Baxış zamanı onun üzərindən narkotik vasitə olan heroin də aşkar edilərək götürülüb. Saxlanılan şəxs maddi sübutla birgə istintaqa təhvil verilib. Faktla bağlı Yasamal Rayon Polis İdarəsində cinayət işi başlanılıb, araşdırma aparılır.

## 2 kq-a yaxın narkotik müsadirə olunub

Ötən gün polis əməkdaşlarının narkotiklərin qanunsuz dövriyyəsinə qarşı keçirdikləri əməliyyat tədbirləri uğurla nəticələnib, 2 kiloqrama yaxın narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, Nəsimi Rayon Polis İdarəsinin 20-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Aydın Əzimov saxlanılıb. Baxış zamanı ondan 510 qram heroin aşkar edilərək götürülüb.

Bakı şəhər sakini Yaqub Yunusov isə Sabunçu Rayon Polis İdarəsi 15-ci Polis Bölməsinin əməkdaşları tərəfindən saxlanılıb. Üzərinə baxış zamanı 400 qram marixuana aşkar edilib. Həyata keçirilən əməliyyat tədbirləri ilə Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən Qaradağ rayonu ərazisində Bakı şəhər sakini Elbrus Orucovdan 205 qram marixuana, Gəncə Şəhər Baş Polis İdarəsinin əməkdaşları şəhər sakinləri, əvvəllər məhkum olunmuş Seymur Talıbovdan 120 qram, qardaşı, əvvəllər məhkum olunmuş Kəmaləddindən 114 qram tiryək, Yevlax Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə şəhər sakini, əvvəllər məhkum olunmuş Səbuhi Musayev saxlanılıb, ondan 483 qram marixuana götürülüb. Saxlanılan şəxslər maddi sübutlarla birgə istintaqa təhvil veriliblər. Faktlarla bağlı cinayət işləri başlanılıb, istintaq-əməliyyat tədbirləri aparılır.

# Rəsul Quliyevin ümidsiz son şansı

***"Vahid namizəd"lə seçkilərə qatılmaq problemləri bir tərəfə, müxalifətin namizəd siyahısı, deyəsən, ölkə daxilində yaşayan vətəndaşlarla hələ də dola bilmir. Xəyalpərəstlər indi bu siyahını doldurmaq üçün xaricə qaçmış və bir çox əcnəbi ölkələrdə sığınacaq tapmış mühacirlərdən də istifadə etmək qərarına gəliblər.***

Vaxtaşırı fikrini, yolunu və hətta əqidəsini dəyişən müxalifət indi də bir vaxtlar heç mövqeləri üst-üstə düşməyən fiqurların adından da yararlanmağa çalışır. Gah başqa-başqa partiya liderlərinin, gah da, bir vaxtlar Milli Məclisdə yer almış siyası simaların adlarını hallandırır, mövqeyini şişirdir və az qala milçəkdən fil düzəldirlər. Belə şişirtmələrlə elə bil, əzələ nümayiş etdirir, göz qabağında olan cılız funksionerlərdənsə, az qala yaddaşlardan belə silinmiş ünsürlərin adlarını gündəmə gətirməklə, hələ ki, varlıqlarını subut etməyə çalışırlar.

Bu qədər "cırtdan" partiyaların, qurumların hər birinin, cari il keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə həddindən artıq çox sayda öz namizədləri olduğu halda, xaricdə mühacir həyatı yaşayanların az qala hər birinin müxalifət nümayəndəsi kimi seçkilərə qatılacağına ümid bəsləyənlərə, sözün əsl mənasında adamın lap yazığı gəlir. Özündə güc tapa bilməyənlərin kimlərinsə adına, olmayan elektoratına ümid bəsləmələri, həqiqətən, çox acınacaqlıdır. Bu hal, məğlubiyyətin artıq öncədən qəbul edilməsi, etirafıdır.

### Eks-spikerin "badbaxt" dediyi adamlarla əməkdaşlığı

Elə bil ki, bütün müxalifət nümayəndələri bir araya gəliblər, razılıq əldə ediblər, əməkdaşlıqları da öz yerindədir, bir "GAP" lideri Rəsul Quliyev çatışmır. Amma R.Quliyevin bu müxalifətlə nə zamansa bir araya gəldiyini, bir-birini bəyəndiyini heç xatırlamaq olmur. Əksinə, indi Amerikada mühacir həyatı yaşayan R.Quliyevin bir zaman spiker kürsüsündən müxalifət nümayəndələrini hədəfə aldığı yaddaşlardan silinmir. Eks - spikerin "badbaxt" dediyi adamlarla nə vaxtdan dost olduğu, bir mövqedə olduğu və bir əqidəyə qulluq etdiyini, yaxud edəcəyini ağla belə gətirmək mümkün deyil. Belə olan halda, ""GAP" lideri ilə bunları birləşdirən nədir" sualı meydana çıxır və adamı düşündürür. Əlbəttə ki, şəxsi maraqlar, ambisiyalar, xalqa, millətə, hökumətə düşmən mövqeləri və bu mənada, eyni məfkurə sahibi olmaları. Dağıdıcı müxalifət kiminlə desən danışığa, razılığa gedər, təki bu kimsə ölkəyə, vətənə xəyanət edənlərdən və vətənini satmağa hazır olanlardan olsun. Amma müxalifətin əməkdaşlığı hələ, o demək deyil ki, mövqe və mənafe bölgüsündə kimə isə güzəştə gedəcək. Əslə güzəştə getmək dağıdıcı müxalifətin ənənələrinə müvafiq deyil və belə bir halın olacağına heç R.Quliyevin də gümanı yoxdur. Belə olan halda, "GAP" lideri özü də çox yaxşı başa düşür ki, onun adından da həmişəki kimi müxalifət məharətlə istifadə etməyə və ictimaiyyət arasında fikir formalaşdırılmasından yararlanmağa çalışır. Əgər belə istifadə olunmağı Quliyev özünə rəva bilirsə, bu, onun şəxsi işidir. Amma boş yerə ortalıqda nə canfəşanlıq edir, kimin dəyirmanına su tökür, bu, bir az müəmmalıdır.

### "GAP" lideri özünü ideal təmiz və antikorrupsioner kimi sırımağa çalışır

Kimdir R.Quliyev, nə kimi fəaliyyəti olub, onu sıravi partiya üzvündən, adi adamdan fərqləndirən xüsusiyyət nədir, hansı liderlik qabiliyyətləri və keyfiyyətləri var? Bir partiyadan digərinə, ondan da bir başqasına bir göz qırpımında keçid etmək kimi qeyri-normal fəaliyyət liderlikdirmi, yaxud vətəndaşlıq norması hesab oluna bilərmi? Əsla, belə bir anormal fəaliyyətə malik insan haqqında layiqli sözlər söyləmək olmaz.

Hazırda ABŞ-da mühacir kimi yaşayan "GAP" lideri utanmadan demokratiyadan dəm vurur, rüşvətxorluq, korrupsiya barədə ağız dolusu danışır, özünü ideal təmiz, demokrat və antikorrupsioner kimi sırımağa çalışır. Halbuki zavod



rəhbəri olduğu dövrdə nə dərəcədə demokrat olması da bəlli idi, hətta korrupsiya məsələləri də göz qabağında idi. Bəlkə bunu danmağa cəhd etmək fikri var? Bəs soruşmazlar ki, ay "GAP" sədri sən 20 ildən çoxdur heç bir əmək fəaliyyəti ilə məşğul olmadan Amerikada hansı vəsait hesabına yaşayırsan? Yoxsa sən bütün ömrün boyu halal əmək haqqına göz dikib, uzun illər bu əməkhaqqını yığıb, gedib ömrünün ixtiyar çağlarını, məhz ştatlarda yaşamaq istəmisən? Yaxud nə vaxtsa mühacir olacağını bilirdin və olmaya səndə öncəgörmə qabiliyyəti də var imiş? Hər bir halda bu suallar nə normal cavabını tapa bilməz və nə də Quliyevin özünü su kimi aydın, təmiz və ideal qələmə verməsi reallığa uyğun deyil.

### Mühacirin iddiaları mənasız və boş söz yığınından başqa bir şey deyil

Digər tərəfdən, hamıya öyüd vermək tövrü ilə özünü hamıdan ağıllı hesab edən mühacir Azərbaycana qayıdacağını, prezident seçkilərinə qatılacağını iddia edərkən, niyə qanun haqqında düşünmür? Məgər kimin ağlına nə gəlirsə onu da etmək imkanına malikdirmi? Bir halda ki, son 10 ildə ölkədə yaşamayan bir kimsənin prezident seçkilərində iştirakı qanuna ziddirsə, o zaman "GAP" sədrinin iddialarının nə mənası var, bütün bunlar boş söz yığınından başqa nə ola bilər?

"GAP" sədri özü də, etiraf etdiyi kimi, son şansını sınamaqdadır. Hətta bu şansın əlçatmaz olduğunu da öz nitqində dolayısı ilə etiraf edir. Başqa bir məqamda isə, özünün qocaldığını və hətta vəzifənin öhdəsindən belə gələ bilməyəcəyini də danmır. Elə isə, meydanda gündəmə gəlmək nəyə lazımdır? Boş vədlərlə intermet vasitəsilə çıxışlar etməyə nə lüzum var? Göründüyü kimi, R.Quliyev də onun adından istifadə etməyə çalışanlar kimi nə dediyinin, nə etdiyinin belə fərqində deyil. Belə insanların, nəinki liderliyi, rəhbər vəzifə daşıyacağı, hətta sağlam düşüncəyə malik olmaları belə cəmiyyətdə şübhə doğurmaqdadır. Azərbaycan xalqı belə insanları heç zaman dəstəkləyə bilməz və əslində, onların özlərinin də belə bir dəstəyə zərrə qədər ümidi yoxdur.

**İnam HACIYEV**

# "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası və Azərbaycan

***Avropada mövcud olan insan hüquqlarının müdafiəsi mexanizminin əsasını "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" 1950-ci il tarixli Konvensiya təşkil edir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası 1950-ci il noyabrın 4-də Romada Avropa Şurası üzv dövlətləri tərəfindən qəbul olunmuş və 1953-cü il sentyabrın 3-də qüvvəyə minmişdir.***

Konvensiya 3 bölmə, 59 maddə və əlavə protokollardan ibarətdir. Konvensiyanın I bölməsi Hüquqlar və azadlıqlar haqqında müddəaları, II bölməsi Avropa İnsan Hüquqları Məhkəməsi haqqında müddəaları, III bölməsi isə ümumi müddəaları təsbit edir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 1 saylı Protokolu 1952-ci il martın 20-də qəbul olunmuşdur. Protokolun mətni 1 noyabr 1998-ci ildə qüvvəyə minmiş 11 saylı Protokolun müddəalarına müvafiq olaraq dəyişdirilib. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının Avropa İnsan Hüquqları Məhkəməsinə tövsiyə xarakterli qərarlar çıxarmaq səlahiyyətinin verilməsi haqqında 2 saylı Protokolu 1963-cü il 6 may tarixində qəbul edilmişdir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 3 saylı Protokolu 1970-ci il 21 sentyabr tarixində qüvvəyə minmişdir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının Konvensiyaya və onun birinci Protokoluna artıq daxil edilənlərdən başqa bəzi hüquq və azadlıqların təmin olunmasına dair 4 saylı Protokolu 1963-cü il 16 oktyabr tarixində qəbul edilmişdir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 5 saylı Protokolu 1971-ci il 20 dekabr tarixində qüvvəyə minmişdir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının ölüm cəzasının ləğvinə dair 6 saylı Protokolu 1983-cü il 28 aprel tarixində qəbul edilmişdir. 6 İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 7 saylı Protokolu 1984-cü il 22 noyabr tarixində qəbul edilmişdir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 8 saylı Protokolu 1 yanvar 1990-cı ildə qüvvəyə minmişdir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 9 saylı Protokolu 6 noyabr 1990-cı ildə qəbul edilmişdir. 11 saylı Protokol qüvvəyə mindikdən sonra 9 saylı Protokol qüvvədən düşdü. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 10 saylı Protokolu 25 mart 1992-ci ildə qəbul edilmişdir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının, Konvensiyaya uyğun olaraq, yaradılmış nəzarət mexanizminin yenidən təşkil olunması ilə əlaqədar 11 saylı Protokolu 11 may 1994-cü ildə qəbul edilmiş və 1 noyabr 1998-ci ildə qüvvəyə minmişdir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 12 saylı Protokolu 4 noyabr 2000-ci ildə qəbul edilmişdir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 2, 3, 5, 8, 9, 10, 11 saylı Protokolları Konvensiyanın mətninə inkorporasiya olunmuşdur.Bu sənədin insan hüquqlarının qorunmasına dair beynəlxalq standartların bərqərar olunması istiqamətində müstəsna rolu olmuşdur. Konvensiyanı hüquqi sənəd kimi bir neçə aspektdən qiymətləndirmək olar. Birincisi, Konvensiyanın əsasında səmərəli nəzarət mexanizmi fəaliyyət göstərir. Bu mexanizmlərə əsaslanan iştirakçı-dövlətlər, Konvensiyaya və onun əsasında formalaşan presedent hüququna söykənərək, bir tərəfdən, milli qanunvericiliyi, digər tərəfdən isə, dövlət hüquq təsisatlarının fəaliyyətini təkmilləşdirmək imkanı əldə edir. Qeyd olunan tendensiya Avropa Şurasına daxil olan bütün dövlətlərdə özünü büruzə verir. İkincisi, nəzərə almaq lazımdır ki, Konvensiyanın milli hüquq institutlarına təsiri daimi xarakter daşıyır və ümumavropa inteqrasiya prosesində özünü büruzə verir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə Avropa Konvensiyasının qarşılıqlı əlaqələri və qarşılıqlı təsiri buna əyani sübutdur. Məlum olduğu kimi, dövlətimiz 2001-ci il dekabr ayının 25-də Avropa İnsan Hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyasını təsdiq etmişdir. Avropa Şurasının bu mühüm sənədinə münasibət bildirməklə, Azərbaycan mötəbər beynəlxalq təşkilatla sıx əməkdaşlığa hazır olduğunu və insan hüquqldarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, dövlətimiz Avropa Şurasına üzv olmaqdan çox əvvəl insan hüquqlarının qorunması üzrə yeni sistem formalaşdırmağa başlamışdır. Bu proses ölkədə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında aparılan hüquq islahatlarının əsas istiqamətlərindən birini təşkil etmişdir. Heç də təsadüfi deyil ki, Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması ölkə konstitusiyasının 12-ci maddəsinə əsasən dövlətin ali məqsədi kimi bəyan edilmişdir. Bu müddəaya uyğun olaraq, Azərbaycanda insan hüquqlarının inkişafına və təkmilləşdirilməsinə daima böyük diqqət yetirilir. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, konstitusiyada sadalanan insan və vətəndaş hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Bu sənədlər sırasında, həmçinin, "Avropa İnsan Hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvesiya da daxildir. Konvensiyanın milli qanunvericiliklə qarşılıqlı əlaqələri hazırda inkişaf dövrünü yaşayır. Konvesiyada təsbit olunmuş normalar bir çox hüquq sahələrində əks etdirilir. Bu prosesi əyani surətdə müşahidə etmək üçün konvensiya ilə milli qanunvericilik aktlarını müqayisəli şəkildə nəzərdən keçirmək kifayətdir. Azərbaycan Respublikası 2001-ci il dekabr ayının 25-də "Avropa İnsan Hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya"nı və onun 1, 4, 6, 7 saylı Protokollarını ratifikasiya etmişdir.

"İnsan hüquqları üzrə birgə işçi qrupu bir əməkdaşlıq qrupudur və heç bir dövlət qurumunu əvəz etmir. Məqsədimiz yalnız humanitar aspektdə vətəndaş cəmiyyətinin müraciətlərinə baxılması və qeyri-hökumət təşkilatları ilə hakimiyyət nümayəndələri arasında daha sıx və birbaşa əlaqələrin qurulmasıdır". Bu fikirləri Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Əli Hüseynli deyib.

Ə.Hüseynli bildirib ki, bir neçə il bundan əvvəl hökumət, parlament və vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət bu cür işçi qrupu mövcud idi. O zaman da işçi qrupu insan hüquqları sahəsində mövcud olan problemlərin birgə müzakirəsi ilə bağlı memorandum imzalamışdı. Bir müddət həmin işçi qrupu, mandatına uyğun olaraq, fəaliyyət göstərdi və çox da əhəmiyyətli işlər görülmüşdü. Onun sözlərinə görə, bu qrupda həm hakimiyyət nümayəndələri, həm də vətəndaş cəmiyyəti daha geniş təmsil olunur.

"İnsan haqlarının qorunması dövlətin ali məqsədidir, bununla bağlı xüsusi qurumlar var, Ombudsman var, məhkəmələr insan hüquqlarının pozulması ilə bağlı işlərə baxır. Burada bizim məqsədimiz Azərbaycanda vətəndaş cəmiyyətinə əhəmiyyət verməyimizdir, qeyri-hökumət təşkilatlarının rolunu qeyd etməkdir. Yəni daha sıx təmas mexanizmidir. Beləliklə, insan hüquqları ilə bağlı meydana çıxan, müzakirə oluna bilən, yəni istənilən bir məsələ hakimiyyət nümayəndələrinin diqqətinə operativ şəkildə çatdırılacaq. Bu qrupun əhəmiyyəti bundan ibarətdir və fəaliyyət sahəsi də kifayət qədər genişdir"- deyə komitə sədri vurğulayıb.

Azərbaycan mətbuat azadlığı, şəffaflıq, demokratiya və insan hüquqlarının qorunması sahəsində heç bir Qərb dövlətindən geri qalmır. Heç bir dövlətdə bu sahədə vəziyyət bizdəkindən yaxşı deyil. Bu fikirləri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov QHT-lərə Dövlət Dəstəyi Şurasının 2014-cü ildəki fəaliyyəti ilə bağlı hesabat konfransında söyləyib. Əli Həsənov deyib: "Əlbəttə, biz iddia etmirik ki, ən təkmil cəmiyyət Azərbaycan cəmiyyətidir. Bundan başqa, biz Azərbaycanda heç bir problemin olmadığını, Azərbaycan cəmiyyətinin bu və ya digər problemlərdən sığortalandığını da iddia etmirik. Dünyanın heç bir ölkəsi bunu iddia edə bilməz". Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, QHT-lər, dövlət strukturları, ölkədə fəaliyyət göstərən xarici qurumlar, mətbuat orqanları, xarici donorlar Azərbaycanın qanunlarına hörmətlə yanaşmalıdırlar. Qanun pisdirsə, onu müzakirəyə çıxarmaq və dəyişmək olar. Amma bu, heç kimə əsas vermir ki, mövcud qanunu icra etməsin. Əli Həsənov bildirib ki, inkişaf etmiş cəmiyyət quruculuğunu qarşısına məqsəd qoyan Azərbaycan hakimiyyəti bu məqsədə çatmaq üçün bütün vəzifələri uğurla icra edir. Şöbə müdiri Azərbaycanda qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyəti üçün hər cür şərait yaradıldığını, xaricdəki bəzi maraqlı dairələrin verdiyi subyektiv qiymətdən asılı olmayaraq, Azərbaycanın QHT sektorunun dünyada ən nümunəvi sektorlardan biri olduğunu diqqətə çatdırıb. Əli Həsənov vurğulayıb ki, ölkəmizdə siyasi əqidəsinə, hakimiyyətə münasibətinə, cəmiyyətdə tutduğu mövqeyə heç bir fərq qoyulmadan bütün QHT-lərə müraciət etdikləri sahə üzrə qrant verilir. Azərbaycan hüquqları Respublikasının İnsan Üzrə Müvəkkili (Ombudsman) Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş, Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və bu Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilmişdir.

Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının və Azərbaycan Respublikası hakimlərinin fəaliyyətinin yoxlanılması Müvəkkilin səlahiyyətlərinə aid deyildir. Lakin məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə, məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlər istisna təşkil edir.

Müvəkkilin insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunmasını, ona əməl edilməsini, təmini vəziyyətinin öyrənilməsini, monitorinqini və təhlilini, habelə, çatışmazlıqların və pozuntuların aşkar edilməsini, pozulmuş hüquqların bərpasını və pozulmasının qarşısının alınmasını özündə ehtiva edir.

İnsanlar öz şikayətlərini Müvəkkilə müxtəlif vasitələrlə verə bilərlər. Belə ki, hər bir şəxs poçt və elektron poçtu, rəsmi internet saytındakı onlayn müraciət, aparatda və regional mərkəzlərdə fəaliyyət göstərən qəbul otağı, işgəncələrlə bağlı qaynar xətt, 916 nömrəli uşaq qaynar xətti vasitəsilə, habelə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, hərbi hissələrə, sosial yönümlü müəssisələrə, o cümlədən, uşaq, ahıl və əlillər evlərinə, internatlara, səhiyyə və təhsil müəssisələrinə başçəkmələri, habelə, məcburi köçkünlərin məskunlaşdıqları qəsəbələrə baxışları zamanı şəxsən təqdim etmək imkanına malikdirlər. Aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında fəaliyyət göstərən Müvəkkil Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxır. Şikayəti insan hüquqları pozulmuş şəxsin razılığı ilə üçüncü şəxslər, o cümlədən, qeyri-hökumət təşkilatları verə bilər. İnsan hüquqları pozulmuş şəxsin razılığını almaq mümkün olmadıqda, yəni həmin şəxs vəfat etdikdə, fəaliyyət qabiliyyətini itirdikdə və ya qanunvericiliklə müəyyən edilmiş digər hallarda şikayəti üçüncü şəxslər və ya qeyri-hökumət təşkilatları razılıq almadan da verə bilərlər. Qeyd edilənlərlə yanaşı, hüquqları pozulmuş şəxsin razılığı ilə xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda və ya öz hüquqlarını müstəqil şəkildə müdafiə etmək qabiliyyəti olmayan şəxslərin maraqlarına toxunulduğu hallarda Müvəkkilin öz təşəbbüsü ilə araşdırma aparmaq səlahiyyəti də vardır. Şikayət ərizəçinin hüquqlarının pozulduğu və ya ona bu barədə məlum olduğu gündən bir il müddətində verilə bilər. Cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslər tərəfindən ünvanlanmış şikayətlər senzuradan keçirilmədən 24 saat müddətində Müvəkkilə göndərilir.

Şikayətin verilmə müddəti keçdikdə, səlahiyyətlərinə aid olmadıqda, anonim olduqda, şikayətlə bağlı məhkəmə icraatı getdikdə və ya təkrar təqdim edilmiş şikayətdə yeni məlumatlar, faktlar və sübutlar olmadıqda, Müvəkkil həmin şikayətlərə baxmır. Müvəkkil insan hüquqlarının pozulmasına dair daxil olan şikayətləri səlahiyyətlərinə aid olduqda, baxılmaq üçün qəbul edir. Müvəkkil insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı barəsində şikayət verilən orqanın və ya vəzifəli şəxsin həmin şikayətlə bağlı mülahizələrini öyrənməlidir. Müvafiq dövlət orqanı və ya vəzifəli şəxs həmin mülahizəni 10 gün müddətində Müvəkkilə təqdim etməlidir.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 12 yanvar


## Qış aylarında sağlam qidalanma

Qış aylarında sağlam qidalanma planlarını tətbiq etməyin nə qədər çətin olduğunu hamımız bilirik. Gündüzlərin qısa olması səbəbindən hərəkətlərimiz azalır, artıq çəkilərimizi qalın paltarların altında gizlədə bilməyin verdiyi arxayınlıqla daha artıq və sağlam olmayan qidalar yeməyə başlayırıq. Yazda izə aldığımız bu artıq çəkilərdən azad olmaq üçün bir çox yollara əl atırıq. Halbuki, qış aylarında da qidalanmağınıza diqqət edərək və sağlam qidalanaraq bütün bu problemlərin öhdəsindən asanlıqla gələ bilərsiniz. Bunun üçün verdiyimiz tövsiyələrə əməl etməyə çalışın. Qışda bədənimizin ən çox ehtiyacı olan maddələrdən biri C vitaminidir. Bu vitamini qəbul etmək üçün bolluca meyvə yeməlisiniz. Bəzi insanlar meyvə yemək əvəzinə suyunu sıxıb içir və ya qabıqlarını soyaraq yeyir. Lakin qabıqları ilə yeyilə bilən meyvələri qabığını soymadan, yaxşıca yuyaraq yeməlisiniz və meyvələrin lətində olan vitaminlərin itməməsi üçün suyunu sıxıb içmək əvəzinə özünü yeməlisiniz. Suyun təkcə yaz aylarında bol miqdarda içilməsi fikrindən daşının. Yazda olduğu kimi qışda da gündə iki litr su içməyiniz bədəninizin öz istiliyini qoruya bilməsi və tarazlığını təmin edə bilməsi üçün olduqca əhəmiyyətlidir. Çay, kofe və spirtli içkilər isə təəssüf ki, suyun faydalı olmasına mane olur. Belə içkilər böyrəklərinizi daha çox işlədərək bol miqdarda su itirməyinizə səbəb olur. Soyuq havalarda şirin qidalar yediyiniz zaman özünüzü yaxşı hiss etdiyinizi bilirik. Ancaq çirin qidalar əvəzinə makaron, bulqur, qara çörək kimi qidalar yeyərək bədəninizin daha sağlam bir şəkildə karbonhidrat qəbul etməsinə və enerji istehsal etməsinə şərait yaratmış olarsınız.

## E vitamini nədir və nələrdə var?

E vitamini bədənimizin ehtiyacı olan ən vacib vitaminlərdən biridir və əskik olması bir çox problemlərin yaranmasına səbəb olur. Bu vitamin həm xroniki narahatlıqlar, həm də xərçəng xəstəliyinin inkişaf etməsinin qarşısını almaqda olduqca faydalıdır. Həkimlər uşaqlarda sağlam böyümək və cinsi inkişaf üçün E vitamini qəbulunun zəruriliyini qeyd edirlər. Həmçinin uşaqlarla yanaşı yeniyetmələrin də bu vitamini qəbul etməyi olduqca vacibdir. Xüsusilə qadınlar bu vitaminin qəbuluna diqqət yetirməlidirlər. Çünki E vitamini dərinin yaxşılaşmasına təsir edir və cinsiyyət orqanlarının fəaliyyətini nizamlayır. Kişilərdə isə ürək və damar xəstəliklərindən, prostat vəzi xərçəngindən qorunmada faydalı təsirə malikdir. E vitamininin çatışmazlığı isə immun sisteminin zəifləməsi, bədəndə tarazlığın itməsi, gözlərdə problemlərin yaranması və başqa narahatçılıqlara səbəb olur. E vitamini bir çox qidada olduğu üçün onu qəbul etməkdə bir o qədər də çətinlik çəkmirik. E vitamini ilə zəngin olan qidalara misal olaraq buğda, kartof, pomidor, qoz, fındıq, badam, yumurta, balıq yağı, ispanaq, kələm, qabaq və sairəni göstərmək olar. Bunlardan hər hansı birindən gün ərzində müəyyən qədər istifadə etməyiniz E vitamini qəbulu üçün kifayətdir. Əgər bu qidalardan yemək istəmirsinizsə, E vitamini kapsullarından istifadə edə bilərsiniz.

## Təbrik edirik!



Bu gün Kənan balanın 1 yaşı tamam olur. Ad günü münasibəti ilə babası Çingiz, nənəsi Mənzər xanım Kənanı ürəkdən təbrik edirlər! Kənana uzun ömür, can sağlığı və ata-anasına gözəl, ağıllı övlad olmasını, Vətənə mübariz, mətin və cəsarətli oğul olmasını və həyatda xoşbəxtlik arzulayırlar.

## ELAN

Bakı Şəhər İcra Hakimiyyəti Başçısının Aparatı tərəfindən Qəmbərov Emin Ənvər oğlunun adına verilmiş N-024398 saylı ORDER itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika fakültəsinin I kurs tələbəsi İbrahimova Sevinc Nizami qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Tərlan Əhmədov: Yaxın günlərdə "Neftçi"də ilk legioner transferi olacaq



Hazırda təlim-məşq toplanışının ilk mərhələsi davam edir. Daha çox fiziki hazırlığa üstünlük veririk. Sevindirici haldır ki, bütün futbolçular ağır yükləmələri qəbul edə bilirlər. Komandada yüksək əhval-ruhiyə var.

AZƏRTAC xəbər verir ki, bu sözləri "Neftçi" futbol klubunun baş məşqçisi Tərlan Əhmədov deyib. Baş məşqçi bildirib ki, futbolçularımıza qış fasiləsi ərəfəsində fərdi hazırlıq planı verilmişdi. Görünür, komandamızın hər bir üzvü fəal istirahət edərək fərdi tapşırıqları yerinə yetirib. Antalyada keçiriləcək ikinci mərhələdə isə texniki və taktiki məşqlərə xüsusi nəzər yetiriləcək. Türkiyədə 5 yoxlama oyunu keçirməyi planlaşdırırıq. Yorğunluq fonunda keçiriləcək bu matçlar həm istədiyimiz oyun üslubumuzun təkmilləşməsi, həm də yeni futbolçuların komandaya uyğunlaşması baxımından əhəmiyyətlidir.

"Klub rəhbərliyi ilə birgə müəyyənləşdirdiyimiz transfer siyasətinə uyğun işlər gedir. Prezident Orxan Hüseynzadə bütün işlərə şəxsən nəzarət edir və bizə bacardığı dəstəyi verir. Problemli mövqelər üzrə kifayət qədər çox futbolçuları izləmişik. Bu proses indi də davam edir. Tələsmək də istəmirik. Seçim zamanı hər bir nüansa diqqət etmək lazımdır. Bu işdə səhvə yol vermək olmaz. Düzdür, qış fasiləsi zamanı yaxşı oyunçu tapmaq asan deyil. Bundan əlavə, yerli futbolçu qıtlığı da var. Yalnız onu deyə bilərəm ki, bizə lazım olan mövqelərə keyfiyyətli, komandamızı gücləndirəcək legionerlər transfer olunacaq. Təbii ki, büdcə imkanları çərçivəsində", - deyə baş məşqçi əlavə edib.

## "Real" PSJ-nin futbolçusunu heyətinə qatmaq istəyir



"Real Madrid" futbol klubu PSJ-nin yarımmüdafiəçisi Qonsalu Qedeşi heyətinə qatmaq istəyir. Hazırda portuqaliyalı futbolçu icarə əsasında "Valensiya"da çıxış edir. Daha əvvəl 21 yaşlı futbolçunun transferi üçün PSJ klubu "Valensiya"dan 40 milyon avro istəmişdi. Çempionlar Liqasının səkkizdəbir final mərhələsində "Real"a rəqib olan PSJ Qedeşi Madrid təmsilçisinə əvvəl istədiyi qiymətdən artıq məbləğə satacağı bildirilib.

Qeyd edək ki, maliyyə fair-pley qaydalarına görə, PSJ iyunun 30-dək transfer məbləği 80 milyon avrodan aşağı olmayan futbolçunu satmalıdır.

## "Mançester Yunayted" və "Sevilya" arasında qalmaqal yaşanıb




Futbol üzrə UEFA Çempionlar Liqasının 1/8 final mərhələsində üz-üzə gələcək "Mançester Yunayted" və "Sevilya" arasında qalmaqal yaşanıb. Qol.az-ın "goal.com"a istinadən yaydığı xəbərə görə, ispan klubunun qonaq komandanın azarkeşləri üçün bilet qiymətlərini 54 funt-sterlinqdən 89 funta qaldırması Mançesterdə narazılıqla qarşılanıb. İngilislər qiymətin aşağı salınması üçün qarşı tərəfə müraciət etsələr də, "Sevilya" rəhbərliyi fikrini dəyişməyib. Belədə "qırmızı şeytanlar" da qiymətləri eyni məbləğdə artırmaqla bağlı qərar qəbul ediblər. "Mançester Yunayted" rəsmiləri bununla aradakı 35 funtluq fərqi aradan qaldırmaq və artıq gəliri azarkeşlərinin səfər oyununa bilet almalarına xərcləmək niyyətindədir. Qeyd edək ki, bu komandalar arasında ilk oyun İspaniyada baş tutacaq.

## Dünyanın ən yaşlı futbolçusu müqaviləsini yeniləyib



Peşəkar futbolda indiyədək 32 mövsümdə çıxış etməklə adını dünya idmanı tarixinə yazdıran 51 yaşlı yaponiyalı futbolçu Kazuyoşi Miura ölkə çempionatının ikinci liqasında çıxış edən "Yokohama" klubu ilə müqaviləsinin müddətini bir il uzadıb. AZƏRTAC xəbər verir ki, fevralın 26-da 51 yaşı tamam olacaq K.Miura bununla da dünyanın ən yaşlı futbolçusu rekordunu daha da möhkəmləndirəcək.

2005-ci ildə "Yokohama" klubuna transfer edilən K.Miura ötən il martın 5-də - 50 yaş və 7 günlük olarkən peşəkar futbol tarixində meydana çıxan ən yaşlı idmançı adına sahib olub. O, bununla da 1965-ci ildən etibarən ingiltərəli Stenli Metyuza məxsus olan rekordu iki gün fərqlə yeniləyib. Yaponiyalı futbolçu ötən mövsümü 12 qolla başa vurub. Ümumiyyətlə, K.Miura "Yokohama"nın heyətində 243 oyunda 23 dəfə fərqlənib. Ölkəsində "Kral Kazu" ləqəbi ilə tanınan futbolçu daha əvvəl Braziliya və İtaliya çempionatlarında da çıxış edib. Yaponiya millisinin heyətində 89 dəfə forma geyən K.Miura rəqib qapılarına 55 dəfə yol tapıb.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov



Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62



Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500